# QÜSL
# DƏSTƏMAZ
# NAMAZ

www.islam.com.az

**BBK 29.1**

Məsləhətçi:
**Elşad MAHMUDOV**
İlahiyyat elmləri namizədi

Dini Redaktor:
**Prof. Abdullah KAHRAMAN**

Editor, Bədii və texniki redaktor:
**Halil ÖZTÜRK**

Nəşriyyatın direktoru:
**Zahid MƏMMƏDRZAYEV**

Dil Redaktoru:
**Siracəddin Hacı**
Filologiya elmləri namizədi

**Qüsl, Dəstəmaz, Namaz. Qismət.** Bakı. 2006. 88 səh. (şəkilli)

Qüsl, dəstəmaz və namaz isə bu maddi və mənəvi təmizliyin ən böyük nümunəsi və simvoludur. Biz inanırıq ki, bu kitab dinini öyrənməyə çalışan və namaz qılmağa başlayan dindarlar üçün çox böyük bir töhfədir.

0403000000
M-085-39-2006

© **"Qismət"**, 2006

www.islam.com.az



# QÜSL ✦ DƏSTƏMAZ ✦ NAMAZ

www.islam.com.az

Qismət PRINTING & PUBLISHING

BAKI-QİSMƏT-2006

Bu nəşrin işıq üzü görməsinə səbəb olan
gözəl insana səmimi təşəkkürümüzü bildiririk.
Allah ondan razı olsun.



Bu kitab nəşr edilərkən,
Məhmət DOĞRU tərəfindən hazirlanan və
Türkiyə "Damla Yayınevi"nin nəşr etdiyi
"ABDƏST-QÜSUL-NAMAZ"
kitabından istifadə edilmişdir.
Allah onlardan razı olsun.

www.islam.com.az



BİSMİLLƏHİR-RAHMƏNİR-RAHİM

Müqəddəs dinimiz olan İslamda maddi və mənəvi təmizliyə çox böyük əhəmiyyət verilir. Hətta təmizlik imanın yarısı olaraq qiymətləndirilir. Qüsl, dəstəmaz və namaz isə bu maddi və mənəvi təmizliyin ən böyük nümunəsi və simvoludur. Qüsl və dəstəmaz ümumiyyətlə islamda bütün ibadətlərin girişi və açarıdır desək yanılmarıq. Namaz isə İslamın əmr etdiyi ən böyük və əhəmiyyətli ibadətlərdən biridir. Bir çox faydası və hikməti olmaqla yanaşı namaz əvvəla insana, uca və böyük olan Allahın razılığını qazandıran, insanı yaradıcısı olan Allaha yaxınlaşdıran və möminin meracı olan bir duadır. Bundan başqa namaz -İslam dininin beş əsasından biri, Peyğəmbərlərin yolu, Mələklərin sevgisinə nail edən bir ibadətdir. Eyni zamanda namaz-imanın işarəsi, duanın qəbuluna vasitə, rizqə bərəkət gətirən, insan vücuduna rahatlıq verən saleh bir əməldir. Namaz həmçinin-düşmənlər üzərinə bir silah olan, şeytanı insandan uzaqlaşdıran, ölüm mələyi ilə namaz qılan arasında bir şəfaətçidir. Namaz qəbirdə işıq, Münkər və Nəkir mələklərinə cavab, qiyamətə qədər qəbirdə can yoldaşı, qiyamət günündə namaz qılanların üstündə bir kölgəlik, insanın başının tacı, bədənin paltarı, önündə gedən nur, Rəblərinin hüzurunda möminlərin hüccəti, Sirat körpüsündən keçiş, cənnətin açarı və mərifət nurudur. Namaz daha necə çox hikmətləri olan Ərəb dilində adı "*salət (cəmi salavat)*" sözləri ilə ifadə edilən, təkbir ilə başlayıb müəyyən hərəkət və sözlərlə davam edərək salamla sona çatan,

Uca yaradan olan Allah Təalaya qarşı təsbih, təzim, həmd və şükrün ifadəsidir. Və namaz, böyük İslam Peyğəmbəri Həzrəti Mühəmməd Sallallahu Əleyhi Və Səlləmin də dediyi kimi "*onun gözünün nurudur*".

Daha bilmədiyimiz çox böyük faydaları, savabları və hikmətləri olan namazı öyrənmək və öyrətmək üçün Əhli Sünnənin Hənəfi məzhəbinə görə hazırlanan və möminlərimizə təqdim edilən bu kitabın işıq üzü görməsi çox sevindirici bir haldır. Müstəqilliyimizdən günümüzə qədər olan son bir neçə il ərzində din sahəsində baş vermiş müsbət dəyişikliklər, əhalinin geniş kütlələrinin dinin mənəvi-etik dəyərlərinə uyğunlaşması, dini ədəbiyyatın yayılması, ixtisaslaşdırılmış tədris mərkəzlərinin açılması, yeni ibadət ocaqlarının tikilib köhnələrinin bərpa edilməsi, müqəddəs yerlərə ziyarətlərin təşkili ölkəmizdə dindarlığın geniş vüsət aldığını, getdikcə dindarların sayının artdığını və dinə olan ehtiyacın genişləndiyini göstərir. Biz inanırıq ki, bu kitab dinini öyrənməyə çalışan və namaz qılmağa başlayan dindarlar üçün çox böyük bir töhfədir. Ona görə də kitabın hazırlanmasında əməyi keçən və zəhmət çəkən hər kəsə təşəkkür edirik. Qoy bu kitabdan öyrəndiklərimiz parlaq bir nur kimi hər birimizin haqq yolunu daim işıqlandırsın və imanımızı kamilləşdirsin. Qəlbimizin qapılarını hər cür pislik, yamanlıq, dünyanın nəfsani hərislik və xəbisliklərinin üzünə bağlasın. Qoy Allah dərgahında, ruhlar aləmində şərəfli, ləyaqətli yer tutmağımız üçün bizə yar olsun. Amin!

**Elşad MAHMUDOV**

Bakı Dövlət Universiteti İlahiyyat Fakultəsi
İlahiyyat elmləri namizədi

# NAMAZIN BİZƏ FAYDALARI

Namazın bizə maddi-mənəvi bir çox faydaları var. Bu faydalardan bəziləri bunlardır.

**1**. Gündə beş vaxt namaz qılan bir insan, daima Allahı xatırlayar və özünü hər an Onun hüzurunda hiss edər. Bu isə, o insanın yaddaşında pis düşüncələrin yaranmasına imkan verməz.

Dünyada insana Allahı unutduracaq, onu qəflətə atacaq bir çox şey var. İnsan yaradılışı baxımından gecə-gündüz dünyəvi işlərlə məşğuldur. Bu məşğələ içində olan insana hər an Allahı xatırladacaq bir şeyin olması vacibdir. Belə bir şey olmasa, insan həm Allahı unudar, həm də qəlbində Allah qorxusuna yer verməz. Allahı unudanda isə, ancaq öz nəfsini, keyfini, mənfəətini düşünən eqoist bir insan halına gələr. Haqq, hüquq, ədalətə fikir verməz. İnsan bu hala gələndə, artıq ona nə qanun, nə də polis təsir edə bilər. Fürsət düşəndə heç nəyə baxmayaraq, istədiklərini edər.

Bax bunun üçündür ki, Allah Təala insan oğlunun qəlbinə ona daima Allahı xatırladacaq bir gözətçi qoymuşdur. Bu gözətçi də namazdır.

Namaz insana mövlasını xatırladır. Ağıl, fikir, əl, ayaq, göz, qulaq, kimi bütün əzalarını günahlardan qoruyar. Başqasının malına, canına, ar və namusuna göz dikməz.

Namazın bu yönünə Qurani-Kərimdə belə işarə olunmuşdur: "*Namaz qıl. Ona görə ki, namaz insanı hər cür pis və çirkin işlərdən uzaq tutar*".

Hədisi-şərifdə deyilir: "*Namaz dinin dirəyidir.*"

**2**. Namaz möminin gündəlik həyatını da qaydaya salar. Gündə beş dəfə, müəyyən olunmuş vaxtlarda Allahın hüzurunda olmaq zərurəti insanı müəyyən bir qayda və nizam içində yaşamağa sövq edər. İşlərini namaz vaxtlarının müəyyən etdiyi zaman dilimlərinə görə tənzimə məcbur edər.

**3**. Hər namaz sahibinə nəfsini mühakimə və nəzarət etmək xüsusiyyətini də qazandırır.

Tez-tez müdir və ya müfəttiş hüzuruna çağrılan bir məmur, işində necə diqqətli davranır, işlərini necə müntəzəm edirsə, bunun kimi gündə ən azı beş dəfə Allah Təalanın hüzuruna çıxan bir insan da, bütün işlərini xəta və səhvsiz edir.

**4**. Namaz qılan bir mömin, qəlbən rahat, ruhən qüvvətli, mənən güclüdür. O, həyatı boyunca vəzifəsini haqqıyla yerinə yetirmiş olmağın hüzuru ilə yaşayır.

**5**. Allah Təalanın beş vaxt namazını qılan bir insanı, Cənnətinə qoyacağına dair vədi vardır. "*Cənnətin açarı namazdır*" hədisi-şərifdə bu ilahi vədə uyğun söylənilib.

Bu ifadə namaz qılmayan kimsənin cənnətə girə bilməyəcəyi anlamına gəlmir. Allah istəyərsə, qulunun razı olduğu bir yaxşılığından və ya islami bir xidməti üçün, onun günah və bütün qüsurlarını, ibadət və borclarını əfv edib onu cənnətinə qoya bilər. Bu, təmamən Onun lütf və mərhəmətinə bağlıdır. Namaz ibadətini məna və ruhuna uyğun şəkildə qüsursuz yerinə yetirənə isə Allah cənnətini vəd etmişdir.

**6**. Gündə beş vaxt namaz qılmaq eyni zamanda kiçik günahlar üçün də bir əvəzdir. Rəsuli-Əkrəm beş vaxt namazı vaxtında qılanı, gündə beş dəfə evinin önündən axan bir çaya girib yuyunana bənzədir.

**7**. Şərt və ədəbinə tam riayət edilərək qılınan beş vaxt namazın qiyamət günündə sahibi üçün bir nur, dəlil və sübut olacağı, onu qəbirdə qaranlıqlardan və əzabdan, hesabın çətinliklərindən qurtaracağı da hədisi-şəriflərin bəyanından bilinir.

**8**. Namazın dünya və axirət həyatı üçün ən mühim faydalarından biri də namaz qılan insanın bütün dünyəvi iş və çalışmalarının gözəl bir niyyətlə ibadət sayılmasıdır. Bu böyük qazancın isə tək bir şərti vardır. O da fərz olan namazlarını qılmaq, ciddi bir səbəb olmadan namazlarını qəza etməməkdir.

İnsanın dünyəvi çalışmalarının ibadət sayılmasının sirri, namazın insanlara faydalı olacaq xidmətlər göstərməyə ciddi bir zövq və həyəcan meydana gətirməsidir. Buna görə, insan qocalsa belə, ailəsinin məişəti üçün işləməlidir. "Artıq yaşlandım deyərək, bir kənara çəkilib sadəcə axirətim üçün çalışım", deməməlidir.

**NAMAZ**

Allahın əmri, İslamın şərti, Möminin meracı,
Dinin dirəyi, Ruhun qidası, İmanın nurudur.

**NAMAZ**

Hər gün qılınır *(Beş vaxt namaz)*.

**NAMAZ**

Hər həftə qılınır *(Cümə namazı)*.

**NAMAZ**

İldə iki dəfə qılınır *(Bayram namazı)*.

**NAMAZ**

Tək qılınır *(Sünnət namazları)*.

**NAMAZ**

Camaatla qılınır *(fərz namazları tək də qılınır)*.

**NAMAZ**

Ölülər üçün bir dəfə qılınır *(Cənazə namazı)*.

**NAMAZ**

Vacib olaraq qılınır *(Vitir və bayram namazları).*

**NAMAZ**

İmanın əlaməti, vücudun sağlamlığıdır.

**NAMAZ**

Tərk edilməz, *(Xəstə namazı).*
Xəstədirsə, ayaqda durmaq imkanı yoxdursa,
oturaraq, ona da imkanı yoxdursa, uzanaraq,
uzanaraq da imkanı olmasa
baş hərəkətləri ilə qılınır.

www.islam.com.az

# DİNİ HÖKMLƏR

**Fərz**: İslam dinində yerinə yetirilməsi açıq-aydın olaraq əmr edilən işlər haqqında hökmdür. Fərzi tərk etmək haramdır. Fərzə əməl edən savab, onu tərk edən isə günah qazanır.

**Vacib**: yerinə yetirilməsi əmr edilən əməllər haqqında hökmdür. Quranda bu hökmün dəlili fərz qədər açıq-aydın deyildir. Məsələn, bayram namazı qılmaq, fitrə vermək vacibdir.

**Sünnət**: Həzrəti Peyğəmbərin fərz və vacibdən əlavə etdiyi işlərdir. Məsələn, Peyğəmbər kimi dəstəmaz almaq, namaza Peyğəmbərin durduğu qaydada durmaq.

**Məkruh**: Məkruh, xoşa gəlməyən şey deməkdir. Məkruh iki qismdir;

-***Təhrimən məkruh***, edilməsi istənilməyən, harama yaxın olan bir işdir. Axirətdə əzaba səbəb olur.

-***Tənzihən məkruh***, edilməsi xoş görülməməklə bərabər, işləndiyi təqdirdə əzaba yol açmaz. Halala yaxın bir **kərahat**dir, ancaq tərk etmədə səvab vardır.

**Müstəhəb**: Həzrəti Peyğəmbərin bəzən edib, bəzən etmədiyi işlərlə bağlı hökmlərdir ki, bunların yerinə yetirilməsi savab qazandırır, yerinə yetirilməməsi isə qadağan olunmayıb. Məsələn nafilə (əlavə) namaz qılmaq, nafilə oruc tutmaq, nafilə sədəqə vermək.

**Mübah**: Dinə görə yerinə yetirilməsi əmr edilməyən və tərk edilməsi qadağan olunmayan işlərlə bağlı hökmlərdir. Yeyib-içmək, oturub -durmaq, yatmaq kimi.

**Haram**: Dinən görə yerinə yetirilməsi qəti qadağan olunan və tərk edilməsi qəti şəkildə əmr edilən işlər haqqında hökmlərdir. Yalan danışmaq, oğurluq etmək, qumar oynamaq, şərab içmək kimi.Haramı tərk edən savab, haram iş tutan isə günah qazanır.

**Müfsid:** Başlanmış bir ibadəti pozan şeylə bağlı hökmlərdir. Namaz və orucla əlaqədardır. Məsələn, namaz qılarkən danışmaq namazı, oruc ikən bir şey yemək orucu pozduğu üçün müfsid hökmündədir.

# NAMAZ

Uca Rəbbimiz buyurmuş:
*"Allah qatında din İslamdır."*

❑

Sevgili Peyğəmbərimiz buyurmuşdur:
*"Namaz dinin dirəyi,*
*"Mömінin meracı*
*(Allah qatına ucalması)dır."*

## NAMAZ

- ✓ **Namaz** insanı pisliklərdən, günahlardan qoruyur.
- ✓ **Namaz** bizi oxumağa,öyrənməyə çağırır, sağlam yaşamağımızı təmin edir.
- ✓ **Namaz** ətrafımızdakı insanlarla bizi yaxınlaşdırır, barışdırır, Allaha yönəldir, Allaha yaxınlaşdırır.
- ✓ **Namaz** dünya həyatında, axirət həyatında xoşbəxtliyimizdir. Xoşbəxt olmağı kim istəməz!
- ✓ O halda bütün dəqiqliyi ilə **Namazı** öyrənək, qılaq və xoşbəxt olaq.

www.islam.com.az

## NAMAZIN FƏRZLƏRİ

- ✓ **Fərz** Allahın qəti əmridir.
- ✓ Namazın fərzləri **on iki**dir.
- ✓ Bunlardan **altısı** namaza başlamadan yerinə yetirilən fərzlərdir. Bunlara **Namazın Şərtləri** deyilir.
- ✓ Namazın fərzlərindən **altısı** da namazın içində yerinə yetirilən fərzlərdir. Bunlara **Namazın Rükünləri** deyilir.
- ✓ Namazın fərzlərindən biri və ya bir neçəsi olmasa, namaz olmaz.
- ✓ İndi bunları sıra ilə görək:



(İtaətlə)
Məni xatırlayın ki,
Mən də sizi yada salım!
Mənə şükr edin,
Məni danmayın!
(əl-Bəqərə, 2/152)

## NAMAZIN ŞƏRTLƏRİ

1. **Hədəstən** (Böyük təmizlik) **Təharət**: Gözlə görünməyən, Hədəs deyilən mənəvi pislikdən dəstəmaz, qüsl (boy dəstəmazı) və təyəmmümlə təmizlənməkdir.

2. **Nəcasətdən** (Kiçik təmizlik) **Təharət**: Bədənimizi, geyimimizi və namaz qılacağımız yerləri gözlə görünən maddi kirlərdən təmizləməkdir.

3. **Sətr-i övrət**: Ayıb yerlərini örtməkdir. Kişilərdə ayıb yerləri göbək ilə diz qapağı arasıdır. Namazda bu qismin örtülməsi fərzdir. Qadınlarda ayıb yerləri əl, üz və ayaqlardan başqa bütün vücudun örtülməsidir. Namaz qılınan yerdə başqa heç kim olmasa da qadınların bu şərti yerinə yetirmələri fərzdir.

4. **Qiblə**: Məkkə şəhərində yerləşən Kəbəyə tərəf namaz qılmaqdır.

5. **Vaxt**: Namazları vaxtında qılmaqdır.
Namaz vaxtlarını təqvimlərdə tapa bilərsiniz.

6. **Niyyət**: Hansı namazı qılacağını ürəkdən düşünməkdir.

“Yaxşı əməl heç də ibadət vaxtı üzünüzü
günçıxana və günbatana çevirməkdən ibarət deyildir.
Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə,
kitablara və peyğəmbərlərə inanan, Allah məhəbbəti yolunda
(və ya mal-dövləti çox sevməsinə baxmayaraq) malını
(kasıb) qohum-əqrabaya, yetimlərə, yoxsullara, pulu qurtarıb
yolda qalan müsafirə (səfər əsnasında pulu qurtarıb yolda qalan
yolçulara) və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat
verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda,
çətinlikdə (ehtiyac, yaxud xəstəlik üz verdikdə) və cihad zamanı
(məşəqqətlərə) səbr edənlərdir. (İmanlarında, sözlərində və
əməllərində) doğru olanlardır. Müttəqi olanlar da onlardır!”
*(Bəqərə, 2/177)*

www.islam.com.az

## NAMAZIN RÜKÜNLƏRİ

1. **Təkbir** (Başlama təkbiri)**:**
   Namaza "Allahu Əkbər" təkbiri ilə başlanır.

2. **Qiyam:**
   Namazda ayaq üstə durmaqdır.

3. **Qiraət:**
   Namazda Qurani-Kərimdən bir miqdar oxumaqdır.

4. **Rükü:**
   Namazda əllər dizlərə çatacaq şəkildə əyilmək və vücudu yerə paralel tutmaqdır. Qadınlar daha az əyilirlər.

5. **Səcdə:**
   Namazda burnu, alnı, əlləri, dizləri və ayaqları yerə qoymaqdır.

6. **Təşəhhüd** (Kade-i Axirə - Son Oturma)**:** Namazın axırında Təşəhhüd miqdarı (Əttəhüyatü oxuyacaq qədər) oturmaq.

# İSLAMDA TƏMİZLİYƏ VERİLƏN ÖNƏM

Hədisi-şərifdə Peyğəmbərimiz: "*Namazın açarı təmizlik, başlanğıcı təkbir, sonu da salamdır.*" buyurur.

Təmizlik bəzi ibadətlərin başlıca şərti olduğu kimi, səhhət və sağlamlığın da vacib ünsürüdür. Bundan başqa ruzinin artmasına da səbəb olur.

Təmizliyi, sadəcə bədən təmizliyinə aid etmək səhv olar. Bədən təmizliyi qədər, hətta, ondan da çox artıq təmizliyi, niyyət dürüstlüyü, əxlaq gözəlliyi vacibdir. Niyyəti təmiz olmayanın ibadəti saf olmaz, Allah yanında qəbul olunmaz.

Buna görə müsəlmanda qəlb təmizliyi ilə bədən təmizliyi birləşməli, hər ikisinin də təmiz tutulması şərt ilə kamil bir müsəlman olmağın mümkünlüyü bilinməlidir.

"*İslam təmizlik təməli üzərində tikildi*", "*Təmizlik imanın yarısıdır.*" hədisi-şərifləriylə Hz. Məhəmməd bu iki məsələyə işarə etmişdir.

"*Allah, tövbə edənləri də, (maddi-mənəvi kirlərdən) təmizlənənləri də sevər...*" (Əl-Bəqərə, 2/222). "*Bu dəstəmaz və təyəmmüm əmriylə Allah sizi çətinliyə salmaq istəməz, lakin O, sizi pak, tərtəmiz etmək və üzərinizdəki nemətini tamamlamaq istəyər ki, bəlkə şükr edəsiniz!*" (Əl-Maidə, 5/6)

**Təmizliyin hikməti nədir?**

Atomlardan günəşə, zərrələrdən ulduzlara qədər bütün varlıqlarda bu təmizlik qanununun hökm etdiyini görürük.

Qandakı hüceyrələr vücuda girən zərərli mikrob və maddələri yox edərək bu əmrə uyduğu kimi, hər zaman içimizə alıb verdiyimiz nəfəs də qanı təmizləyərək eyni qanuna tabe olduğunu göstərir. Göz qapaqları gözləri silər. Milçəklər qanadlarını süpürüb təmizləməklə o əmri eşitdikləri kimi, göy üzündəki bulud və hava da dinləyər. Hava yer üzünə qonan toz-torpaqdan ibarət zibillləri üfürərək təmizləyir. Bulud yaş bir süzgəc kimi su səpər və toz-torpağı isladır. Sonra göy üzünü kirlətməmək üçün

zibillərini toplayıb nizam içində təmizlənib gedər. Göyün gözəl üzünü silinmiş süprülmüş parlaq tər-təmiz edər.

Cənabı haqq, kainata tətbiq etdiyi təmizlik əmrinə, yaradılmışın ən kamili olan insanı da həmsöhbət etmiş, onu maddi və mənəvi təmizliklə məsuliyyətli etmişdir. Bax, budur təmizlik həqiqəti. Qüddüs adı kimi İsm-i Əzəmdən sayılan bir ada istinad etdiyi üçündür ki, hədisi-şərifdə təmizlik imanın nurundan və kamalından sayılmışdır. Ayələrdə də maddi və mənəvi təmizliklər Allahın sevgisini və rizasını qazanmağa vasitə göstərilmişdir.

**Təharət nədir?**

"*Təharət*", lüğətdə təmizlik, "*nəzafət*" mənalarında işlədilir. Dini mənası isə "nəcasət" deyilən maddi pislik və "hədəs" deyilən ibadətlərdə kirlilik hallarından təmizlənmək deməkdir.

Təharət (təmizlik) iki cür olur:

1.Nəcasətdən təharət 2.Hədəstən təharət

**Nəcasətdən təmizlik: (Kiçik təmizlik)**

Maddi olan kirə "nəcasət" deyilir. Təmiz olmayan, nəcasətli maddəyə isə nəcis adı verilir. Nəcasətdən təmizlik də bədən və ya libasda olan və nəcis sayılan maddələrdən təmizlikdir.

**Hədəstən təmizlik: (Böyük təmizlik)**

Hədəs bəzi ibadətlərin yerinə yetirilməsinə dini baxımdan mane olan bir çirklilik halıdır. Dəstəmazsızlıq, cünüblük, aybaşı və nifas halı kimi… Hədəstən təmizlik isə qüsl və ya dəstəmaz almaqla təmizlənməkdir.

# DƏSTƏMAZ NƏDİR?

Su ilə edilən, üzü, qolları, ayaqları yumaq və başı da məsh etməkdən ibarət olan xüsusi bir təmizlikdir.

Dəstəmazın maddi- mənəvi bir çox faydaları vardır. Dəstəmaz alan bir müsəlman təmizliyi ehtiyat halına gətirmiş olur ki, bu onu xəstəliyə səbəb olacaq hallardan qoruyur, mikroblardan təmizləyir. Dəstəmazın maddi faydası ilə birlikdə mənəvi faydaları da çoxdur.

Dəstəmaz eyni zamanda üzə nur, qəlbə fərəhlikdir. Kiçik günahların əfvinə bir vasitədir. Bu məsələni Rəsul-Əkrəm Əfəndimiz belə bildirmişdir:

"*Kim əmr edildiyi şəkildə dəstəmaz alırsa, yenə əmr edildiyi şəkildə namaz qılarsa, bütün keçmiş kiçik günahları bağışlanar*".

Dəstəmaz möminin mənəvi silahıdır, onunla mömin özünü pis hiss və arzulardan qoruyar. Zehninə hücum edən vəsvəsə və mənfi fikirlərin təsirindən azad olur.

Dəstəmazlı olanlar çox zaman xəbis və şərli varlıqların şərrindən, günahlardan dəstəmazları hörmətinə qorunarlar. Bir Hədisi-Şərifdə dəstəmazlı ikən vəfat edənin şəhidlik mərtəbəsinə çıxmasının mümkün olacağı bəyan edilmişdir.

**Dəstəmaz almağın savabı**

Dəstəmaz namazın açarıdır. Namaz qılmaq üçün dəstəmaz almaq fərzdir. Dəstəmazın savabının çoxluğunu sevgili Peyğəmbərimizin Hədisi-Şəriflərini oxuyaraq öyrənək.

"*Dəstəmaz üzə nur, qəlblərə fərəhlik verir*".

"*Mömin bir qul dəstəmaz aldığı zaman, üzünü yuyarkən gözləri ilə baxıb işlədiyi günah və xətaları su ilə axıb gedər. Qollarını yuyarkən əllərini uzadıb işlədiyi xətaları aldığı dəstəmaz suyu ilə axıb gedər. İki ayağını yuyarkən yeriyərək işlədiyi xətalar, günahlar aldığı dəstəmaz suyu ilə axıb gedər. Belə ki, müsəlman dəstəmazı tamamlandıqda, xətalardan təmizlənmiş olur*". Allahın xətaları nə ilə yox etdiyini, dərəcələri nə ilə yüksəltdiyini sizə xəbər verib şad eləyim mi?

Əshabı-Kiram: -Bəli, ya Rəsuləllah! Dedilər

Sevgili Peyğəmbərimiz: "*Sıxıntılara və pisliklərə qarşı tam bir dəstəmaz almaq, məscidlərə doğru çox addım atmaq, bir namazdan sonra digər namaz vaxtlarını gözləmək. Bax bunlar, qəlb qüvvəti üçün sağlam körpüdür. Səbr və dözümdür.*"

## OXUMA PARÇASI

### DƏSTƏMAZ ALMAĞI UŞAQLARDAN ÖYRƏNƏN QOCA

Bir gün yaşlı bir müsəlman çeşmədən dəstəmaz alırdı.

Peyğəmbərimizin nəvələri Hz.Həsən ilə Hz.Hüseyn də orada oynayırdılar. Baxdılar ki, yaşlı müsəlman dəstəmazını səhv alır. Yanına gəlib gözlədilər. Qoca dəstəmazını bitirdi, uşaqlar: "*Əssəlamu aleykum (Allahın salamı üzərinizə olsun)*", əmi, dəstəmazının xeyrini gör, Allah qəbul etsin, dedilər. Qoca müsəlman: Sağ olun övladlar, Allah sizdən razı olsun, dedi. Uşaqlar:

- Əmi, sizdən bir xahişimiz var: biz, bir-birimizlə bəhsə girmişik. Biz ikimiz də bir dəstəmaz alaq, siz baxın hansımızın aldığı dəstəmaz doğru…

Uşaqlar, ayrı-ayrı dəstəmaz aldılar. Yaşlı müsəlman da diqqətlə onların dəstəmaz almalarına baxdı. Uşaqlar:

Necə, əmi, hansımızın aldığı dəstəmaz doğrudur? Mənimki, üsuluna uyğundur, yoxsa qardaşımınki?

Siz bizə söyləyin ki, bir də səhv dəstəmaz almayaq, həm də sizə dua edərik. Bir kəlmə öyrətsəniz, sizə də savab var. Siz daha yaxşı bilərsiniz. Yaşlısınız, biz hələ uşağıq.

Yaşlı müsəlman:

- Uşaqlar, ikinizin də dəstəmazı doğrudur və eynidir. İkinizin də dəstəmazı arasında heç bir fərq yoxdur. Dəstəmazı səhv alan mənəm, bu yaşıma gəlmişəm, hələ düzgün dəstəmaz almağı öyrənə bilməmişəm…. İndi siz də mənə doğru dəstəmaz almağı öyrətdiniz…

Sağ olun, var olun. Allah sizlərdən razı olsun. Siz kimin övladlarısınız, adlarınız nədir?

Uşaqlar: - Atamız Hz. Əlidir, biz də Həsən və Hüseynik. Həm də axır zaman Peyğəmbəri Hz.Məhəmmədin nəvələriyik.

Yaşlı müsəlmanın gözlərindən yaşlar təsbeh dənəsi kimi süzüldü. Məmnun qaldığını bildirmək üçün belə dedi:

- O uca Peyğəmbərin nəvələri və Hz. Əlinin övladları olduğunuz, dinə çox uyğun davranış və hərəkətiniz, tərbiyə və nəzakətinizdən məlum idi...

Heç qəlb qırmadan, mən qocanın qəlbini incitmədən səhv dəstəmazımı düzəltdiniz, mənə dəstəmaz almağı öyrətdiniz, deyərək uşaqlara bol-bol dua etdi.



ŞƏMS SURƏSİ (Ayə. 1-7)

# DƏSTƏMA

Hədəstən Təharətin
(Böyük təmizlik)
3 növü mövcuddur.

❑

1. Dəstəmaz
2. Qüsl (boy dəstəmazı)
3. Təyəmmüm

## DƏSTƏMAZ

Uca dinimiz İslam,
insanın hər yöndən tərtəmiz olmasını istəyir. Şəhadət kəlməsindən sonra İslamın birinci şərti namazdır; namazın fərzlərindən ilk ikisi də təmizliklə əlaqəlidir.

İmanımızın kamilləşməsi, ibadətlərimizin qəbul olunması və sağlamlığımızın qorunması təmizliyə bağlıdır.

**Dəstəmaz** , dinimizin öyrətdiyi təmizlənmə yollarından biridir və ən vacibidir. Hədəs deyilən, gözlə görülməyən mənəvi pisliklərdən **dəstəmaz** alaraq təmizlənilir.

## DƏSTƏMAZIN FƏRZLƏRİ

**Dəstəmazın fərzləri dörddür:**

1. Üzü bir dəfə yumaq,
2. Əlləri dirsəklərlə birgə bir dəfə yumaq,
3. Başın dörddə birini sulu əl ilə məsh etmək,
4. Topuqlarla birgə ayaqları bir dəfə yumaq.

## DƏSTƏMAZIN ALINMASI

**Dəstəmazımızın** əksik olmaması üçün fərzlərdən başqa, dəstəmazın sünnətlərinə və ədəbinə də diqqət yetirmək lazımdır.

## DƏSTƏMAZ BELƏ ALINIR



**Dəstəmaz almaq üçün hazırlaşırıq.**



**Əuzü Billahi-minəş şeytanir racim.**
**Bismilləhir Rahmənir Rahim**
oxuyaraq,
"*niyyət etdim dəstəmaz almağa*"
deyib niyyət edilir.

www.islam.com.az




Əllərimizi
biləklərədək üç dəfə yuyuruq.
Barmaq aralarını o biri əlin
barmaqlarıyla aralayaraq yuyuruq.
Barmaqlarda üzük varsa, yuyulur.
Əlləri yuyarkən:
"*Suyu təmizləyici və İslamı nur edən Allaha həmd olsun*" deyə,
dua edilir.




Sağ ovucla
ağıza su alınaraq yuyulur.
Dişlər misvak və ya fırça ilə,
bunlar yoxdursa, sağ əlin baş və
şəhadət barmağı ilə yuyulur.
Ağız yuyularkən:
"*Allahım, mənə Peyğəmbərimin Kövsər hovuzunda bir su ehsan et ki, ondan sonra susamayım*" ,deyə
dua edilir.




Sağ ovucla buruna üç dəfə su
çəkilərək hər dəfəsində
sol əl ilə burun təmizlənir. Bu vaxt
"*Nemətlərinin və cənnətlərinin gözəl qoxularından məni məhrum etmə, Allahım*" deyə,
dua edilir.

www.islam.com.az

Saçların dibindən çənə altına qədər, qulaqların qarşısında qalan üzümüzü üç dəfə yuyuruq.
Suyu üzümüzə vurarkən:
"*Bəzi üzlərin ağ olacağı, bəzi üzlərin qara olacağı qiyamət gündə mənim üzümü nurun ilə ağ qıl, Allahım*" deyə, dua edilir.


6

Əvvəl sağ qolumuzu, sonra sol qolumuzu dirsəklərlə birgə üç dəfə yuyuruq. Sağ qolu yuyarkən: *"Mənə əməl dəftərimi sağ tərəfimdən ver və mənim hesabımı yüngül elə, Allahım".* Deyərək, sol qolumuzu yuyarkən: *"Mənə kitabımı sol tərəfimdən və arxadan vermə və məni şiddətli bir sorğuya çəkmə, Allahım*" deyərək, dua edilir.


7

Sağ əlimizi isladaraq ovcumuzun içi ilə başımızın dörddə birini qabaqdan arxaya məsh edirik.
Başımızı məsh edərkən:
*"Mənim üzərimə bərəkətlərindən endir və məni rəhmətinlə əfv et, Allahım*" deyərək, dua edilir.


8

www.islam.com.az



9

Əllərimizi təkrar isladıb, şəhadət, ya da kiçik barmaqlarımız ilə qulaqlarımızı, baş barmaqlarla isə qulaqların arxasını təmizləyirik. Qulaqlarımızı məsh edərkən: "*Allahım, məni sözlərin ən gözəlinə uyanlardan eylə*" deyərək, dua edilir.



10

Üç barmağın üstü ilə boynumuzu məsh edirik. Boynumuzu məsh edərkən: "*Məni cəhənnəm odundan uzaqlaşdır, Allahım*" deyərək, dua edilir.



11

Əvvəl sağ ayağımızı, kiçik barmaqdan başlayaraq barmaq aralarını və ayağımızı topuqla birlikdə üç dəfə yuyuruq, sonra eyni şəkildə sol ayağımızı da yuyuruq. Ayaqları yuyarkən: "*Ayaqların sürüşəcəyi qiyamət günündə mənim ayaqlarımı sənin yolundan sürüşdürmə, Allahım*" deyərək, dua edilir.

www.islam.com.az

## DƏSTƏMAZ BELƏ TAMAMLANIR

**Dəstəmaz**dan sonra **Kəlmei-Şəhadət** oxumaq yaxşıdır.

**"ƏŞHƏDU ƏN LA İLAHƏ İLLƏLLAH**
**ƏŞHƏDU ƏNNƏ MUHƏMMƏDƏN ABDUHU VƏ RASULUH"**

Əgər biliriksə, "**Qədr surəsi**"ni də oxumaq məsləhətdir.

**Bismilləhir-Rahmənir-Rahim**

*"İnnə ənzəlnəhu fi leylətil-qadr. Və mə ədrakə ma leylətul-qədr.*
*Leylətul-qədri xeyrun min əlfi şəhr. Tənəzzəlül-məla ikətu*
*vər-ruhu, fiha bi izni rəbbihim min kulli əmr.*
*Sələmun hiyə hətta mətlə il fəcr."*

## DƏSTƏMAZI POZAN ŞEYLƏR

**Dəstəmaz** pozulmayana qədər ibadət edə bilərik.

**Dəstəmaz** pozularsa, ibadət üçün yenidən **dəstəmaz** almaq lazımdır.

1. Ön və arxadan çıxan pislik və yel,
2. Bədənin bir yerindən axan qan, irin və sarı su,
3. Ağız dolusu qusmaq,
4. Ağız tüpürcəyində qan gələrsə,
5. Yataraq və ya söykənərək uyumaq,
6. Ürəkgetmə,
7. İçki içmək.

www.islam.com.az

# QÜSL (Boy dəstəmazı)

Uca dinimiz İslam təmizliyə böyük diqqət yetirir. Dinimizə görə təmizliyin iki növü var. Bunlardan biri maddi, o birisi də mənəvi təmizlikdir. Maddi təmizlik bədənin, paltarın, ətrafın pis olaraq qəbul edilən şeylərdən təmizlənməsidir. Mənəvi təmizlik isə qəlbin pisliklərdən təmizlənməsi, hədəs və cünüblük deyilən hallardan pak olunmasıdır. Dinimiz dəstəmazı olmayan və cünüb olan insanı da natəmiz sayır. Bu maddi anlamda deyil, mənəvi və hökmü bir kirdir. Mənəvi kir ibadətlərin yerinə yetirilməsinə əngəldir. Müsəlman dəstəmazsızlık şəklindəki pislikdən dəstəmaz alaraq, cünüb şəklindəki pislikdən isə qüsl, yəni boy dəstəmazı alaraq təmizlənir. Bundan başqa namazın dəqiq olması üçün, dəstəmazın və qüslun doğru olması lazımdır. Cünüb olan hər qadının və kişinin, aybaşından və nifasdan azad olan qadınların, qüsl dəstəmazı alması fərzdir.

Cünüb olmaq, cinsi əlaqə halından sonra və yuxuda vücuddan məninin çıxması (ihtilam) ilə olur. Aybaşı halında olan və uşaq doğan qadın da cünüb sayılır.

İbadət məqsədi ilə edilən dəstəmaz və qüsl kimi təmizliklərin bədən və ruh sağlığımız üçün lap çox faydaları vardır. Sübut edilən saysız faydalarından bəzilərini belə sıralaya bilərik.

**1**. Qüslun səhhətə müsbət təsiri vardır. Qüslun insan sağlığına etdiyi müsbət təsir bu şəkildə izah edilir:

Cinsi boşalma hadisəsi, insandakı bütün sinir sistemini səfərbər edən və bütün orqanizmə təsir edən fizioloji bir hadisədir. Bu hadisə vücudda böyük bir hüceyrə itkisi meydana gətirir. Qan dövranı sürətlənir. Hətta, bu əsnada sərf edilən qüvvət min beş yüz metr qaçmağa bərabərdir. Yaxud başqa bir bənzətmə ilə desək, yeddi mərtəbəli bir binanın ən üst mərtəbəsinə qaçaraq çıxmaq qədər yorucudur.

Qüsl insan üçün mükəmməl bir təmizlik, maddi və mənəvi cəhətdən dincəlmə və rahatlıq bəxş edən bir yuyunmadır.

**2**. Cünüblüyə səbəb olan hallarda böyük bir enerji sərf etməklə ürək fəaliyyəti və qan damar sistemi sürətlənir. Yorğunluq, halsızlıq hiss edilir, çox vaxt zehni fəaliyyətlər olduqca zəifləyir. Qüsl ilə vücud əvvəlki vəziyyətinə qayıdır.

**3**. Vücudumuzun normal halda dəyişməz bir elektrik tarazlığı vardır. Bədən sağlığı bu tarazlığ ilə sıx əlaqəlidir. Bu tarazlıq, psixoloji sıxıntılar, iqlim şərtləri, geyim əşyaları, yaşayış, iş yerləri və bu vaxt qüslu vacib olan hallarla pozulur. Bu elektrikli yük hirsli halda normadan dörd dəfə artıq, qüsl lazım olan hallarda isə 12 dəfə artıq olur. Günümüzdə "Qızıl ötəsi" (Enfra-rouje) şüalarla üst dərinin xüsusi şəkilləri çəkilmiş, bu şəkillərdə cinsi münasibətdən sonra vücudun bütün təbəqəsinin artıq dəyişməz elektrik təbəqəsi ilə örtüldüyü müəyyən olunmuşdur. Bu təbəqə dərinin oksigen almasına mane olduğu kimi, dərinin rənginin pozulmasına və tez qırışmasına da səbəb olur. Bu vəziyyətdən azad olmaq üçün vücud iynə ucu qədər yer qalmayacaq şəkildə yuyulmalıdır. Beləliklə, su damcıları artıq elektrik təzyiqini götürərək əvvəlki halına gətirir... Qüsl tibbi baxımdan da mütləq bir təmizlikdir.

**4**. Dəstəmaz və qüsl qan dövranı sistemi üzərində də yaxşı təsirə malikdir. O, damarlardakı sərtləşmə və daralmanın qarşısını alır. Ən əsas mərkəzlərdən biri olan burun arxası və badamcıqlar yuyularaq xəstəliyin qarşısı alınır. Bundan başqa boyun və yanlarının yuyulması da linfa sisteminə təsir edər.

**5**. Su tapılmadığı zaman torpaqla edilən təyəmmüm də böyük ölçüdə vücuddakı durğun elektriki yox etməkdə, torpaqlamaqdadır. Təbəqəsinin artıq dəyişməz elektrik təbəqəsi ilə örtüldüyü müəyyən olunmuşdur. Bu təbəqə dərinin oksigen almasına mane olduğu kimi, dərinin rənginin pozulmasına və tez qırışmasına da səbəb olur. Bu vəziyyətdən azad olmaq üçün vücud iynə ucu qədər yer qalmayacaq şəkildə yuyulmalıdır. Beləliklə, su damcıları artıq elektrik təzyiqini götürərək əvvəlki halına gətirir... Qüsl tibbi baxımdan da mütləq bir təmizlikdir.

# OXUMA PARÇASI

**BİR AMERİKALI GÖZÜYLƏ QÜSL DƏSTƏMAZI**

Ətrafımda olan bir neçə müsəlmanla söhbət edirdim. Ən çox diqqətimi çəkən şey qüsl dəstəmazı idi. Bu istiqamətdə çox dərindən düşündüm və axtarış apardım. Əvvəlcə bəsit bir təmizlik şəkli olaraq ələ aldım. Kağızla silinmə lazımı təmizliyi edə bilməz. Bunun üçün hər gün və ya günaşırı yuyunmaq məcburiyyətində qalırıq. Onsuz da tualet ilə hamam bir yerdədir. Tualetdən qalxan duşun altına girə bilər. Ona görə müsəlman olan bir Amerikalı nə üçün qüsl dəstəmazı alsın.

Düşüncəmi Amerikalı müsəlman dostuma açtım. -Daha geniş düşünə bilirik, dedi. Onsuz da ondan gözlədiyim bu idi. Çünki dostum universitetdə elm adamı idi. Bir də düşünməyə, təhlilə, tənqidə açıq olmayan bir din həqiqi ola bilməzdi. Dedim ki: "Təmizliyin yanında qüslun hansı faydalarını gördünüz?" Əvvəla susdu, sonra üzümə baxdı. Gözləyirdim. İslamla əlaqəli hər şeyi aydınlaşdırmağa qərarlı idim. Dedi ki: “Hər şeyi tam olaraq ələ almaq məcburiyyətindəyik. İslamiyyət tam olduğu kimi, İslamiyyət içində qüsl dəstəmazı də bir bütövdür. İstəyirsiniz, qüsl dəstəmazını tam şəkildə götürək. Əvvəla, mən danışım, siz də qulaq asın. Sonra fikirlərinizi və tənqidlərinizi söyləyərsiniz. Sonra mən cavablandıraram. Qüsl dəstəmazı, müsəlman olanlarla əlaqəli bir ibadətdir. Müsəlman olmayanlar qüsl dəstəmazı almırlar.

Qüsl dəstəmazını Allah əmr etdiyi üçün alırıq. Yəni İslam dinində Allah əmr edər, müsəlman da əmrə itaət edər. Bir müsəlman qüsl dəstəmazı alarkən, "*kirdən, pisdən təmizlənəcəm*", deyə düşünə bilməz. Qüsl dəstəmazi vacib olduğu üçün alınır. Amma həm də təmizlənmiş oluruq. Əsas olan "*əmrə itaət*"dir. Maddi təmizlik sonradan və özündən gələn bir haldır. Onu da diqqətə çatdırım ki, qüsl dəstəmazı kimi maddi təmizlik əmri də var. Bu səbəblə qüsl dəstəmazı alan hər cür maddi təmizliyini də təmin edəcək. Bu da ayrı bir mövzudur.

Mən müdaxilə etdim: - Xahiş edirəm, başqa mövzulara keçməyək. Qüsl dəstəmazı haqqında söhbət edək. Dostum da mənimlə eyni fikirdə olduğunu söylədi və qüsl dəstəmazı bir əmr olduğuna görə, qüsl dəstəmazı ilə uzaq və yaxından əlaqəli əmrlər vardır. Məsələn müsəlmanın zina etməsi, içki içməsi haramdır. Elə isə "*qüsl dəstəmazı al*!" əmrinə uyan bir müsəl-

man "*içki içmə, zina etmə!*" kimi əmrlərə də tabe olacaqdır. Bu vəziyyətdə dinin əmrlərinə itaət edən bir müsəlman iki şəkildə cünüb olur: Biri, həyat yoldaşı ilə, digəri də yuxuda…

Həyat yoldaşı ilə cünüb olmaq iradəli bir davranışdır. Elə bir vaxtda cünüb olmalı ki, namaz vaxtı keçməsin. Yuyunmağa zaman tapmalı, işinə gecikməməli və soyuqda yuyunub xəstələnməməlisən.

Diqqət edilirsə qüsl dəstəmazı almaq məcburiyyəti insanın tez-tez cünüb olmasının qarşısını alır. Bilindiyi kimi tez-tez cünüb olmaq, insanın sinir sisteminə və beyinə zərərlidir. Bir qisim xəstəliklərin tez-tez cünüb olmaqla əlaqəsi vardır. Hətta, tez-tez cünüp olanlarda vərəm, psixika ilə əlaqəli müxtəlif rahatsızlıqlar olduğu kimi, dəli olmaq, özünə qəsd etmək kimi hallar da görünür. Lakin hər xəstəliyi də cünüblüklə bağlamaq olmaz. Həddindən artıq cünüb olmaq insan səhhətinə mənfi təsir göstərir.

Qadınla aybaşıları halında və doğum sonrasında cinsi münasibət qadağandır. Beləliklə, kişi qorunmuş olur. Kişilərdəki cinsi maye kişi üçün enerji qaynağıdır. Kişinin cünüb olmaqdan əvvəl gücü, düşüncəsi, davranışları ilə, cünüp olduqdan sonrakı hərəkətləri fərqlidir.

Məsələn, cünüb olmadan əvvəl kişi özünü daha güclü və hərəkətli hiss edir, məsələləri daha aydın başa düşür. Xanımına yaxınlıq edir. Cünüb olandan sonra isə bunlar tərsinə olar.

Hər cünüblükdən sonra yuyunma məcburiyyəti qadını da cünüb olmaqdan uzaqlaşdırır. Yenə kişi qorunmuş olur. İslamiyyətdə qadının cinsi həyata düşkünlüyü pis sayılmışdır. Belə bir qadın kişini pis bir vəziyyətə sala bilər.

Bu qısa açıqlamamda onu bildirmək istərdim ki, Allah insana onun orqanizminin idarə olunması üçün bütün amilləri bəxş etmişdir. Bunlardan ən vacibi qüsl dəstəmazıdır".

Bu açıqlamalar mənim fikrimi dəyişdirdi. İslamiyətdə ailə həyatına verilən diqqəti gördüm. İslam elə bir dindi ki, hər əmrin bir-birilə bir çox bağlantısı var. Bunları başa düşmək üçün dostumdan bir az vaxt istədim. İslama aid kitabları oxuduqca "mən də müsəlmanam" dedim. Qarşımdakı kağızın üzərinə bu sözləri yazdım. "*Yaxşı bir insan, İslamı yaşayır deməkdir. İslamı yaşayan da yaxşı bir insandır*". Bu cümləni müsəlman dostuma söyləsəm, deyəcək ki, bizim üçün vacib olan ibadət etməkdir. Yaxşı insan olmaq özü-özündən meydana gəlir.

# QÜSL



## QÜSL NƏDİR?

Böyük hədəs deyilən pislikdən,
cünüblükdən və qadınların heyz və nifas (doğum)
müddətindən sonra. Bu hallarda **Qüsl** etmək fərzdir.
Qüsl alınmalıdır. **Qüsl** alarkən bədənin
heç bir yeri quru qalmamalıdır.
Cümə və bayram namazlarından əvvəl,
Həcc və Ümrə üçün ehrama girərkən
**Qüsl** etmək sünnətdir.

www.islam.com.az

## QÜSLUN FƏRZLƏRİ

**Qüslun fərzləri üçdür:**

1. Ağıza su alıb boğaza qədər bir dəfə çalxalamaq
2. Buruna su çəkmək və bir dəfə təmizləmək
3. Başdan dırnağa qədər bütün bədəni,
   heç bir nöqtəsi quru qalmamaqla bir dəfə yumaq.

## QÜSL BELƏ ALINIR

**Mükəmməl bir şəkildə qüsl belə alınır:**

- ✓ Bismillah deyilir və "*Qüsl almağa niyyət etdim*", deyərək niyyət edilir.
- ✓ Əllərimiz yuyulub, bədənimizdəki çirklər təmizlənir.
- ✓ Sonra namaz dəstəmazı alınır.
- ✓ Dəstəmaz alarkən ağıza və buruna su alıb, qarqara edib təmizlənir.
- ✓ Əvvəl başa, sonra sağ çiynimizə, daha sonra sol çiynimizə su töküb, bütün bədən təmizlənir.

## QÜSLSUZ EDİLMƏYƏN İBADƏTLƏR

1. Namaz qılmaq olmaz
2. Qurani-Kərimə və ya hər hansı bir ayəsinə əl vurmaq olmaz
3. Quranı üzündən oxumaq olmaz
4. Kəbə təvaf edilməz
5. Məscidə girmək olmaz.

   Qüslu olmayan bir insanın bunları etməsi günahdır.

## QÜSLU OLMAYANIN BUNLARI ETMƏSİ MƏKRUHDUR

1. Dini kitablardan birini qötürmək və oxumaq
2. Əlini, ağzını yumadan yeyib içmək.
3. Quran ayələrini ona əl vurmadan bir kağıza yazmaq.

www.islam.com.az

## QÜSLLA ƏLAQƏLİ DİGƏR MÖVZULAR

- ✓ Qüsl edilərkən dua edilməz. Çünki qüslda dua məkruhdur.
- ✓ Əllər, ağız və burun yuyularkən yeyib içmək olmaz.
- ✓ Qüsl edərkən dəstəmaz da alırıq.
- ✓ Namaz dəstəmazı ilə olunacaq bütün ibadətləri edə bilərik.
- ✓ Suda üzərkən, niyyət edilərək ağıza və buruna su alındıqdan sonra, suya girərək bütün bədən islanırsa, qüsl alınmış olur.

### QÜSL NƏ DEMƏKDİR?

Qüsl kəliməsi lüğətdə yuyunmaq mənasına gəlir. Bu kəlimənin dini mənası isə, bütün bədənin, heç bir tərəfində iynə ucu qədər quru yer qalmayacaq şəkildə yuyulması deməkdir.

Qüsl nə zaman lazımdır?

**1**. Cünüblük halında. Bu, iki səbəbdən irəli gəlir:

a. İstər oyaq halda olsun, istərsə də yuxu halında olsun, hər hansı bir təmas və ya cinsi münasibət olarsa, kişi və qadından şəhvətlə məninin çölə çıxması.

b. Cinsi münasibətdə olmaq… Burada məninin gəlməsi (inzal) şərt deyildir. Cinsi münasibətin özü elə cünüblük səbəbidir.

**2**. Qüslu fərz qılan ikinci hal, qadınların heyz halıdır. Qadınların heyz halları bitdikdən sonra qüsl etmələri fərzdir.

**3**. Qüsl etməyi fərz qılan üçüncü vəziyyət yenə qadınlara məxsus olan nifas, yəni doğumdan sonrakı halıdır. Nifas halından qurtulan bir qadına da qüsl etmək fərz olur.

www.islam.com.az



www.islam.com.az

# TƏYƏMMÜM

Təyəmmüm,
sadəcə bu ümmətə məxsus bir asanlıqdır.
Möminlər su yoxluğunda və ya
su olmaqla birlikdə
xəstəlik kimi suyu istifadə etmənin
imkansız hala gəldiyi
bəzi vəziyyətlərdə, hədəs
(cünüblük və dəstəmazsızlıq) halından
təyəmmüm vasitəsi ilə azad olurlar.
Beləliklə, əllərində olmayan
bir səbəbə görə. Allaha ibadət
və qulluqdan geri qalmamış olurlar.

www.islam.com.az

## TƏYƏMMÜM NƏDİR?

**Təyəmmüm**; Su olmadığı,
sudan istifadə imkanı tapılmadığı zaman
dəstəmaz və ya qüsl yerinə təmiz torpaq və ya torpaq
növündən bir şeylə təmizlənməyə **təyəmmüm** deyilir.
**Təyəmmüm** dəstəmaz və qüsl yerinə alınır.

## TƏYƏMMÜMÜN FƏRZLƏRİ

**Təyəmmümün fərzləri ikidir**.

**1**. Təyəmmümə niyyət etmək
**2**. Əlləri təmiz torpağa və ya torpaq cinsindən bir şeyə (təmiz qum, daş, kərpiç, çınqıl) iki dəfə vurub əvvəl üzü, sonra qolları məsh etmək.

## TƏYƏMMÜM BELƏ ALINIR

1. **Bismilləhir-Rahmənir-Rahim** deyərək Təyəmmüm almaya niyyət edilir.

2. Barmaqlarımızı açaraq əllərimizin içini təmiz torpağa vurub əvvəl irəli, sonra geri edərək torpağa sürtürük.

**3-4** Baş barmaqlarımızı bir-birinə vuraraq əlimizdəki artıq toz və torpaqları sirkələyib, üzümüzü əl içləriylə məsh edirik.

5. Əllərimizi eyni şəkildə torpağa vuraraq, əvvəl sol əlimizin içi ilə sağ qolumuzu dirsəklərə qədər məsh edirik.

6. Sonra sağ əlimizin içi ilə sol qolumuzu dirsəklərə qədər eyni şəkildə məsh edirik.

www.islam.com.az





3

4





5

6



www.islam.com.az

## TƏYƏMMÜMÜ POZAN ŞEYLƏR BUNLARDIR

1. Dəstəmazı pozan şeylər
2. Qüslu pozan şeylər
3. Suyun bulanması, tapılması. Sudan istifadənin mümkün olması. (Xəstəliyin və ya qonaq qalmağın müddətinin keçməsi kimi)

Təyəmmüm etmiş bir kəs, namaz içində ikən su tapılsa, namazı da, təyəmmümü də pozulur. Dəstəmaz alaraq namazını yenidən qılmalıdır. Ancaq namazını bitirdikdən sonra su tapılsa, namazını yenidən qılmaz.



www.islam.com.az

# NAMAZIN QILINMASI

## BEŞ VAXT NAMAZIN QILINMASI BELƏDİR

**SÜBH NAMAZI - 4 Rükət**:
(2 Rükət Sünnət, 2 Rükət fərz)

**Təkbir**: Niyyət etdikdən sonra əllərimizi qulaq dibinə qaldıraraq **Allahu Əkbər** təkbiri ilə namaza başlayırıq.

Qadınlar isə əllərini sinəsinə qədər qaldıraraq **Allahu Əkbər** təkbiri ilə namaza başlayırlar.

www.islam.com.az





**Qiyam:** Təkbirdən sonra sağ əlimiz sol əlimizin üzərində olmaqla göbəyimizin üstünə qoyuruq. Qadınlar isə əllərini sinələrinə qoyurlar.





Sübhanəkəni sakit oxunr:
"*Sübhanəkallahümmə və bi həmdik və təbarakəsmük və təala
cəddük və la ilahə ğayruk*." Sübhanəkə bitəndən sonra;
*Əuzu billəhi minəşşeytanir-Racim.*
*Bismilləhir-rahmənir-rahim* deyilir.
Fatihə surəsi sakit oxunur:"*Əlhəmdu lillahi Rabbil-aləmin.
Ər Rahmənir-Rahim, Maliki Yəumid-din. İyyakə nə'budu
və iyyakə nəstəin. İhdinəs-siratal mustəqim. Siratalləzinə
Ən'əmtə aleyhim ğayril-məğzubi aleyhim vələd-dallin.*"
Fatihədən sonra Qurandan bir qısa surə və ya üç ayə oxunur.
"*İnnə ə'teynakəl-kövsər Fəsalli li Rabbikə vənhar İnna şaniəkə
hüvəl-əbtər*".Oxuma tamamlandıqdan sonra
Allahu Əkbər deyərək rüküyə gedilir.

**Rükü:** (əyilmək ,baş əymək): əllərini dizlərinin üstünə qoyub Allah qarşısında baş əyir, Allahı təsbih edir.

Təsbih: "*Sübhanə Rabbiyəl-azim.*
*Sübhanə Rabbiyəl-azim.*
*Sübhanə Rabbiyəl-azim.*"





"*Səmiallahü limən həmidəh*" deyərək qalxılır.
"*Rabbəna ləkəl-həmd*" dedikdən sonra
"*Allahu Əkbər*" deyərək səcdəyə gedilir.





www.islam.com.az

**Səcdə:** (başı yerə qoymaq): dizləri üstə çöküb alın yerə qoyulur.

Səcdədə bunları deyilir. Sübhanə Rabbiyəl-ə'la
Sübhanə Rabbiyəl-ə'la
Sübhanə Rabbiyəl-ə'la

















www.islam.com.az

Sonra “*Allahu Əkbər*” deyərək oturulur.
Oturarkən sol ayağ sağ tərəfə söykənilir.
(Qadınlar isə hər iki ayağını sağa tərəf qoyurlar.)
Əllər dizləri üstünə qoyulur.

“*Allahu Əkbər*” deyərək ikinci səcdəyə gedilir.

“*Sübhanə Rabbiyəl-ə'la*
*Sübhanə Rabbiyəl-ə'la*
*Sübhanə Rabbiyəl-ə'la.*” deyilir. **(Birinci rükət başa çatdı).**

Təsbihlərindən sonra səcdədən “*Allahu Əkbər*” deyərək 2-ci rükətə qalxılır.


www.islam.com.az

## İKİNCİ RÜKƏT

İkinci rükətdə
Bəsmələ,Fatihə, Qurandan bir surə və ya
üç ayə oxunur.
“*Bismilləhir-Rahmənir-Rahim*”
“*Əlhəmdu lilləhi Rabbil aləmin. Ər-Rahmənir-Rahim
Maliki Yəumid-din İyyakə nə’budu və iyyakə nəstəin.
İhdinəs-siratəl-mustəqim. Siratəllәzinə Ən’əmtə
aleyhim ğayril-məğzubi aleyhim vələd-dallin.*”
Amin
“*Qul huvallahu əhəd Allahüs-Saməd Ləm yəlid
və ləm yuləd və ləm yəkulləhu küfuvən əhəd.*”

www.islam.com.az



Birinci rükətdə olduğu kimi rükü və səcdələri edilir.
İkinci səcdədən sonra “*Allahu Əkbər*” deyərək
iki səcdə arasında oturduğumuz kimi otururuq.

Sonra,
"*Ət-Tahiyyatu*", "*Allahümmə salli-barik*"
və "*Rabbəna*" duaları oxunur:

"*Ət-Təhiyyatü lilləhi Vəs-sələvatu vət-Tayyibat*
*Əssəlamu aleykə ayyuhən-Nəbiyyü və rahmətullahi*
*və bərakətuh. Əssəlamu aleyna və a'lə ibadillahis-salihin.*
*Əşhədü ənla ilahə illəllah*
*və əşhədü ənnə Muhəmmədən abdühü və rasuluh*".

"*Allahümmə salli alə Muhammədin və alə ali Muhamməd.*
*Kəma salləytə alə İbrahimə və alə ali İbrahim.*
*İnnəkə hamidüm-məcid*".

"*Allahümmə barik alə Muhammədin*
*və alə ali Muhamməd. Kəma barəktə a'lə İbrahimə*
*və alə ali İbrahim. İnnəkə hamidümməcid*".

"*Rabbəna atina fid-dünya hasənətən və fil-axirəti hasənətən*
*və qina azabən-nar. Birahmətikə ya Ərhəmər-Rahimin. Rabbənağ*
*firli və livalideyyə, və lil-mu'mininə yaumə yəgumul hisab.* "

www.islam.com.az



Bu duaları oxuduqdan sonra
başımızı əvvəl sağ çiynimizə çevirərək
"*Əs-səlamu aleykum və rahmətullah*" deyə salam veririk.
Sonra başımızı sol çiğnimizə çevirərək
"*Əs-səlamu aleykum və rahmətullah*" deyərək çeviririk.
Bu salamla Sübh namazının sünnətini qurtarırıq.
Camaatla və ya tək qılınan hər namazdan sonra
"*Allahümmə əntəs-səlamu və minkəssəlam*
*Təbarəktə ya zəl-cələli vəl-ikram*"
deyilir.

www.islam.com.az

**İqamə:**



Allahu Əkbər-Allahu Əkbər
Allahu Əkbər-Allahu Əkbər

Əşhədü əlla ilahə illəllah
Əşhədü əlla ilahə illəllah

Əşhədü ənnə Muhamımədər Rasulullah
Əşhədü ənnə Muhammədər Rasulullah

Hayyə aləs-saləh
Hayyə aləs-saləh

Hayyə aləl-fəlah
Hayyə aləl-fəlah

Qad qamətis-saləh
Qad qamətis-saləh

Allahu Əkbər
Allahu Əkbər

La İlahə İlləllah.



# SÜBH NAMAZININ FƏRZİNİN QILINMASI

## 1-Cİ RÜKƏT

İqamə
Niyyət-Təkbir



Subhanakə
Əuzü Bəsmələ
Fatihə
Bir surə



Rükü



Səcdə



## 2-Cİ RÜKƏT

Bəsmələ
Fatihə
Bir surə



Rükü

Səcdə

Ət-Tahiyyatu
Allahümmə salli
Allahümmə barik
Rabbəna atina



Salam



www.islam.com.az

# ZÖHR (Günorta) NAMAZI - 10 Rükət:
(4 Rükət İlk Sünnət, 4 Rükət fərz, 2 Rükət Son Sünnət)

**Niyyətlər:**

*"Allah rizası üçün niyyət etdim, Zöhr namazının* ***İlk Sünnətini*** *qılmağa"*
*"Allah rizası üçün niyyət etdim, Zöhr namazının* ***Fərzini*** *qılmağa"*
*"Allah rizası üçün niyyət etdim, Zöhr namazının* ***son Sünnətini*** *qılmağa"*

## ZÖHR NAMAZININ 4 RÜKƏT İLK SÜNNƏTİNİN QILINMASI

### 1-Cİ RÜKƏT

Niyət
Təkbir
Subhanəkə
Əuzü Bəsmələ
Fatiha
Bir surə
Rükü
Səcdə



### 2-Cİ RÜKƏT

Bəsmələ
Fatiha
Bir surə
Rükü
Səcdə



### 1-Cİ OTURUŞ

Ət-Tahiyyatu



### 3-Cİ RÜKƏT

Bəsmələ
Fatihə
Bir surə
Rükü
Səcdə



### 4-Cİ RÜKƏT

Bəsmələ
Fatihə
Bir surə
Rükü
Səcdə



### SON OTURUŞ

Ət-Tahiyyatu
Allahümmə salli
Allahümmə barik
Rabbəna atina
Salam



www.islam.com.az



# ZÖHR NAMAZININ 4 RÜKƏT FƏRZİNİN QILINMASI

## 1-Cİ RÜKƏT

- İqamə(kişilər üçün)
- Niyyət
- Təkbir
- Subhanəkə
- Əuzü Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



## 2-Cİ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



## 1-Cİ OTURUŞ

- Ət-Tahiyyatu



## 3-CÜ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Rükü
- Səcdə



## 4-CÜ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Rükü
- Səcdə



## SON OTURUŞ

- Ət-Tahiyyatu
- Allahümmə salli
- Allahümmə barik
- Rabbəna atina
- Salam



www.islam.com.az



# ZÖHR NAMAZININ 2 RÜKƏT SON SÜNNƏTİNİN QILINMASI

## 1-Cİ RÜKƏT

Niyyət
Təkbir
Subhanəkə
Əuzü Bəsmələ
Fatiha
Bir surə



Rükü



Səcdə



## 2-Cİ RÜKƏT

Bəsmələ
Fatihə
Bir surə



Rükü
Səcdə

## SON OTURUŞ

Ət-Tahiyyatu
Allahümmə salli
Allahümmə barik
Rabbəna atina



Salam



www.islam.com.az

## ƏSR NAMAZI - 8 Rükət:

(4 Rükət Sünnət, 4 Rükət fərz)

**Niyyətlər:**

*“Allah rizası üçün niyyət etdim, Əsr Namazının* ***Sünnətin****i qılmağa”*
*Allah rizası üçün niyyət etdim, Əsr Namazının* ***Fərzini*** *qılmağa”*

## ƏSR NAMAZININ 4 RÜKƏT SÜNNƏTİNİN QILINMASI

### 1-Cİ RÜKƏT

- Niyyət
- Təkbir
- Subhanəkə
- Əuzü Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



### 2-Cİ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



### 1-Cİ OTURUŞ

- Ət-Tahiyyatu
- Allahümmə salli
- Allahümmə barik



### 3-CÜ RÜKƏT

- Subhanakə
- Əuzü Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



### 4-CÜ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



### SON OTURUŞ

- Ət-Tahiyyatu
- Allahümmə salli
- Allahümmə barik
- Rabbəna atina
- Salam



www.islam.com.az

(Fərz, vacib) namazlara, (xüsusilə) orta namaza (günortadan sonrakı əsr namazına, ikindi namazına) riayət (əməl) edin və Allaha itaət üçün ayağa qalxın (namaza durun).

*(əl-Bəqərə, 2/238)*

## ƏSR NAMAZININ 4 RÜKƏT FƏRZİNİN QILINMASI

### 1-Cİ RÜKƏT

İqamə(kişilər üçün)
Niyyət
Təkbir
Subhanəkə
Əuzü Bəsmələ
Fatihə
Bir surə
Rükü
Səcdə



### 2-Cİ RÜKƏT

Bəsmələ
Fatihə
Bir surə
Rükü
Səcdə



### 1-Cİ OTURUŞ

Ət-Tahiyyatu



### 3-CÜ RƏKƏT

Bəsmələ
Fatiha
Rükü
Səcdə



### 4-CÜ RƏKƏT

Bəsmələ
Fatiha
Rükü
Səcdə



### SON OTURUŞ

Ət-Tahiyyatu
Allahümmə salli
Allahümmə barik
Rabbəna atina
Salam



www.islam.com.az

## ŞAM (Axşam) NAMAZI - 5 Rükət:
(3 Rükət fərz, 2 Rükət Sünnət)

**Niyyətlər:**

*“Allah rizası üçün niyyət etdim, Şam namazının **Fərzini** qılmağa”*
*Allah rizası üçün niyyət etdim, Şam namazının **Sünnətini** qılmağa”*

## ŞAM NAMAZININ 3 RÜKƏT FƏRZİNİN QILINMASI

### 1-Cİ RÜKƏT

- İqamə(kişilər üçün)
- Niyyət
- Təkbir
- Subhanəkə
- Əuzü Bəsmələ
- Fatiha
- Bir surə
- Rükü
- Səcdə



### 2-Cİ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



### 1-Cİ OTURUŞ

- Ət-Tahiyyatu



### 3-CÜ RÜKƏT

- Bəsmələ
- Fatiha
- Rükü
- Səcdə



### SON OTURUŞ

- Ət-Tahiyyatu
- Allahümmə salli
- Allahümmə barik
- Rabbəna atina
- Salam



www.islam.com.az

## ŞAM NAMAZININ 2 RÜKƏT SÜNNƏTİNİN QILINMASI

| 1-Cİ RÜKƏT | 2-Cİ RÜKƏT | SON OTURUŞ |
|---|---|---|
| Niyyət | Bəsmələ | Ət-Tahiyyatu |
| Təkbir | Fatihə | Allahümmə salli |
| Subhanəkə | Bir surə | Allahümmə barik |
| Əuzü Bəsmələ | Rükü | Rabbəna atina |
| Fatihə | Səcdə | Salam |
| Bir surə | | |
| Rükü | | |
| Səcdə | | |









Xiftən namazının **ilk Sünnəti**
Əsr namazının sünnəti kimi qılınır.

Xiftən namazının **son sünnəti**
Sübh namazının sünnəti kimi qılınır.

## **XİFTƏN** (Gecə) **NAMAZI - 10 Rükət:**

(4 Rükət Sünnət, 4 Rükət fərz, 2 Rükət son Sünnət)

**Niyyətlər:**

*"Allah rizası üçün niyyət etdim, Xiftən namazının **ilk Sünnətini** qılmağa"*
*Allah rizası üçün niyyət etdim, Xiftən namazının **Fərzini** qılmağa"*
*"Allah rizası üçün niyyət etdim, Xiftən namazının **son Sünnətini** qılmağa"*

## XİFTƏN NAMAZININ 4 RÜKƏT FƏRZİNİN QILINMASI

### 1-Cİ RÜKƏT

- İqamə(kişilər üçün)
- Niyyət
- Təkbir
- Subhanəkə
- Əuzü Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



### 2-Cİ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Bir surə
- Rükü
- Səcdə



### 1-Cİ OTURUŞ

- Ət-Tahiyyatu



### 3-CÜ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Rükü
- Səcdə



### 4-CÜ RÜKƏT

- Bəsmələ
- Fatihə
- Rükü
- Səcdə



### SON OTURUŞ

- Ət-Tahiyyatu
- Allahümmə salli
- Allahümmə barik
- Rabbəna atina
- Salam



www.islam.com.az

# VİTR NAMAZI - 3 Rükət:

**Niyyət:**

*“Allah rizası üçün niyyət etdim, **Vitr** namazını qılmağa”*

## VİTR NAMAZININ QILINMASI

### 1-Cİ RÜKƏT




### 2-Cİ RÜKƏT




### 1-Cİ OTURUŞ




### 3-CÜ RÜKƏT




### ARA TƏKBİR







### SON OTURUŞ




www.islam.com.az

## QUNUT DUASI (1)

*“Allahümmə inna nəstəinükə və nəstağfirükə vənəstəhdikə və nüminü bikə və nətubü ileykə və nətəvəkkəlü aleykə və nüsni aleykəl-xayra külləhu nəşkürükə vəla nəkfürük. Və nəxləu və nətrükü mən yəfcürük.”*

## QUNUT DUASI (2)

*“Allahümmə iyyakə na’büdü və ləkə nüsalli və nəscüdü və ileykə nəs’a və nahfidü nərcu rahmətəkə və naxşa azabəkə innə azabəkə bil-küffari mülhiq.”*

## TƏDİLİ-ƏRKAN

(Namazda Tərtibin Sıralanması)

Şərtləri doğru etmək deməkdir.
Namazda tədili-ərkan isə, namazın qiyam, rükü, səcdə kimi şərtlərinin sükunət, vəqar və rahatlıqla yerinə yetirilməsi, tez, sürətli edilməməsi deməkdir.
Məsələn rükudən qalxanda vücud dimdik hala gəlməli, ən azı sübhanə-rabbiyəl-azim deyəcək qədər Ayaqda durub ondan sonra səcdəyə gedilməlidir.
Hər iki səcdə arasında da bir təsbih miqdarı durulmalıdır.
Yoxsa rükudən tam dikəlmədən səcdəyə getmək, birinci səcdədən sonra tam durmadan, ikinci səcdəyə getmək tədili-ərkana ziddir.

NAMAZ QILMAĞIN HARAM OLDUĞU VAXTLAR;

**1**. Günəş doğarkən,
**2**. Günəş tam ortaya və başımızın üstünə gəlib hələ qərb tərəfə keçmədən,
**3**. Günəş batarkən, Bu vaxtlarda namaz qılmaq haramdır.

## CAMAATLA NAMAZ QILMAQ

Camaatla namaz qılmaq, toplu şəkildə namaz qılmaqdır. **Camaat** topluluq deməkdir. **İmam**, camaata namaz qıldıran kimsəyə deyilir. **Müəzzin**; məsciddə azan oxuyana, qamət gətirən kimsəyə deyilir. İmamın vəzifəsinə **imamət**, camaatın imama uymasına **iqtida**, tək başına namaz qılana isə **münfərid** deyilir. Beş vaxt namazın **fərzləri**, **cümə** və **bayram** namazları ilə Ramazanda **təravih** namazı camaatla qılınar.

### CAMAATLA NAMAZ BELƏ QILINIR

Müəzzin qamət gətirdikdən sonra qılacağımız namaza və imama uymağa niyət edirik.

Məsələn: "*Niyyət etdim cümə namazının fərzini qılmağa, uydum imama*" deyirik. Sonra imamla birlikdə təkbir alır, içimizdə Sübhanəkəni oxuyuruq. Sonra susub imamı dinləyirik. İmam Fatihəni bitirən zaman sakit səslə "AMİN" deyirik və yenə imamı dinləməyə davam edirik. İmamın yüksək səslə aldığı bütün təkbirləri biz də sakit səslə təkrarlayırıq. Rükü, səcdə və oturuşlarda namazı tək qılarkən oxuduğumuz bütün təsbih və duaları içimizdən oxuyuruq. Sonda imamla birlikdə salam veririk.

Möminlərin toplanaraq birlikdə namaz qılmaları halına **camaat** deyilir. Camaatla birgə olmaq gücü olan hürr və mükəlləf müslümanlara sünnətdir.
Uca Rabbimiz,
Peyğəmbərimizə xitabən belə buyurmuşdur.
*“Sən də möminlər arasında olub onlara namaz qıldıracağın zaman, onlardan bir qismi səninlə bərabər dursunlar...”*

(Nisa surəsi, 4/102)

# CÜMƏ NAMAZI - 10 Rükət:
(4 Rükət İlk Sünnət, 2 Rükət fərz, 4 Rükət son Sünnət)

(Cümə Namazının **ilk Sünnəti** zöhr Namazının ilk sünnəti kimi qılınır.)
(Cümə Namazının **son sünnəti** zöhr Namazının ilk sünnəti kimi qılınır.)
(Yalnız niyyət cümənin sünnəti olaraq edilir.)

## CÜMƏ NAMAZININ 2 RÜKƏT FƏRZİNİN QILINMASI

### 1-Cİ RÜKƏT

Müəzzinin qaməti
Niyyət



İmamla birlikdə təkbir



Sübhanəkə
İmamın Fatihə və bir surəni oxuması. (İmam Fatihəni qurtardıqdan sonra amin deyirik)
Rükü (imamla)
Səcdə (imamla)



### 2-Cİ RÜKƏT

İmamın Fatihə və bir surəni oxuması
İmamla bərabər Rükü və Səcdə



### SON OTURUŞ

Ət-Tahiyyatu
Allahümmə salli
Allahümmə barik
Rabbəna atina
İmamla bərabər Salam



www.islam.com.az

## CÜMƏ GÜNÜ VƏ CÜMƏ NAMAZI

Cümə müsəlmanların müqəddəs bir günüdür.
Buna görə də müsəlmanlar həmin günü bir bayram sevinci ilə qarşılamalı, yuyunub təmizlənərək və ən yaxşı paltarlarını geyinərək məscidə getməlidirlər. Peyğəmbərimiz belə buyurur:
"*Bir şəxs gözəl şəkildə dəstəmaz aldıqdan sonra cümə namazına gedir, susaraq xütbəyə qulaq asarsa, üç gün artıqlaması ilə həmin cümədən o biri cüməyə qədər olan zaman içindəki günahlar bağışlanar.*"

Ey iman gətirənlər!
**Gümə** günü namaza çağrıldığınız zaman
Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz,
bu sizin üçün nə qədər xeyirlidir! Namaz qılınıb qurtardıqdan sonra
yer üzünə dağılın və Allahın lütfündən ruzi diləyib axtarın!
(Yenə öz işinizə qayıdın!) və Allahı çox zikr edin ki, nicat tapıb səadətə qovuşasınız! (Hər iki dünyada muradınıza yetişəsiniz!)
*(Cümə, 62/9-10)*

## BAYRAM NAMAZI

Şəvval ayının birinci günü **Ramazan bayramı**,
Zilhiccənin onuncu günü isə, **Qurban bayramı**nın birinci günüdür.
Bu iki gündə, günəş doğduqdan sonra,
iki rükət bayram namazı qılmaq, vacibdir.
Ramazan bayramında namazdan əvvəl şirin şeylər yemək,
güsl etmək, misvaqdan istifadə etmək,
ən yaxşı paltarlar geyinmək müstəhəbdir.
Bayram namazları iki rükətdir. Camaatla qılınır,
Ramazan və Qurban bayramı namazlarının qılınışı eynidir.

www.islam.com.az

# BAYRAM NAMAZI - (2 Rükət)

**Niyyət:**

*"Allah rizası üçün niyyət etdim, Bayram namazını qılmağa"*

## BAYRAM NAMAZININ QILINMASI

### 1-Cİ RÜKƏT



















www.islam.com.az



## 2-Cİ RÜKƏT

İmamın Fatihə və bir surə oxuması. İmam Fatihəni oxuduqdan sonra amin deyirik.



Təkbir (İmamla)Sonra əllər yana salınır.
Təkbir (İmamla) Sonra əllər yana salınır.
Təkbir (İmamla) Sonra əllər yana salınır.



Rükü (imamla)
Səcdə (imamla)



## SON OTURUŞ

Ət-Tahiyyatu
Allahümmə salli
Allahümmə barik
Rabbəna atina



İmamla bərabər Salam





www.islam.com.az

# TƏRAVİH NAMAZI (2 Rükət)

**Təravih Namazı**
Ramazan ayının sünnəti olan namazdır.
Oruc tutmayanlar da bu namazı qılırlar.
**Təravih Namazı**
Yatsı namazı ilə vitr namazı arasında qılınır.
**Təravih Namazı**
Camaatla qılınırsa, Vitr namazı da camaatla qılınır.
**Təravih Namazı**
İki və dörd rükətdə bir salam verməklə qılınır.
İki rükətdə bir salam verməklə qılınarsa,
hər iki rükət sübh namazının sünnəti kimi qılınır.
Dörd rükətdə bir salam verməklə qılınarsa, bu dörd rükət,
əsr namazının dörd rükət sünnəti kimi qılınır.

www.islam.com.az



# CƏNAZƏ NAMAZI

Cənazə namazı ölən bir kimsə üçün bir duadır.
Cənazə namazını qılmaq fərzi-kifayətdir.
Müsəlmanlardan bir qrup cənazə namazını qılarsa ,
digərləri də qılmış kimi o borcdan azad olur.
Cənazə namazı ayaqda qılınır və dörd təkbirlidir.

**Cənazə namazı belə qılınır:**
İmam cənazənin orta hissəsində, camaat da arxasında durur.
Cənazə qadın isə sinə bərabərində durulur.
Cənazənin qadın və kişi olduğuna diqqət edərək
namaza niyyət edilir. İmamla birlikdə Təkbir alaraq
namaza başlanır. Əllər digər namazlarda olduğu kimi
göbək altına qoyulur. Eşidilməyəcək şəkildə
"*Sübhanəkəni*" "*Və cəllə sənaükə*"
cümləsini əlavə edərək oxunur.
Sonra İmamla birlikdə təkbir deyilir,
"*Allahümmə salli və barik*" duaları oxunur.
Sonra imamla birlikdə yenə əllər qaldırılmadan
bir təkbir daha alınır, cənazə namazının
"*Allahümməğfir li-hayyina və meyyitina və şahidina
və ğaibina və kəbirina və sağirina və zəkərina və ünsana.
Allahümmə mən ahyeytəhu minna fəahyihi aləl-islami
və mən təvəffeytəhu minnə fətəvəffəhu aləl-iman və xussa
həzəl-meyyitə birravhı vərrahati vərrahməti
vəl mağfirati vərridvan*" duası oxunur.
Başqa dua da oxumaq olar.
Bu duadan sonra imamla birlikdə təkbir alınır, əvvəl sağa,
sonra sola salam verərək namaz tamamlanır.
Cənazə namazı digər namazların əksinə rükü və səcdəsiz,
Qurani-Kərimdən ayələr yerinə, dualarla qılınan bir namazdır.

# QƏZA NAMAZI

Beş vaxt namazı
vaxtında qılmamağa **qəza** deyilir.
Vaxtında qılınmayan beş vaxtın fərz namazları ilə
vitr namazları qəza edilir. Sünnətlər qəza edilməz.
Yalnız keçmiş sübh namazının sünnəti
o gün günortaya qədər sünnəti ilə birgə qəza edilir.

# SƏFƏR VƏ İQAMƏT NƏ DEMƏKDİR?

3 günlük bir məsafəni getmək niyyətilə yola çıxmaqdır.
Belə bir niyyətlə yola çıxan kimsəyə **müsafir** deyilir.
Ona **səfəri** adı da verilir.
Səfər kəliməsinin müqabili **iqamət**dir.
Anadan olduğu yerdə və ya sonradan vətən edildiyi
bir ərazidə oturmaq mənasına gəlir.
Belə bir kimsəyə də **muqim** deyilir.
3 günlük və ya 18 saatlıq uzaqlıqda yerləşən
bir yerə, 15 gündən az qalmaq düşüncəsi ilə
gedən şəxsə **müsafir** deyilir.
**Müsafir** 4 rükətli fərz namazları 2 rükət qılır.
Vaxt çatmayanda sünnət namazlarını
qılmaya bilər.

# SƏHV SƏCDƏSİ

## **SƏHV** (UNUTMA) **SƏCDƏSİ**

Namazda fərz olan bir rükün gecikdirilərsə;
vaciblərindən biri tərk və ya
təxirə salınarsa o vaxt səhv səcdəsi edilər.
Hər hansı bir namazda Fatihəni oxumağı unutmaq, surəni
Fatihədən əvvəl oxumaq,
birinci və son oturuşlarda Ət-Tahiyyatü unutmaq kimi.
Səhv səcdəsi belə edilir.
Namazın sonundakı oturuşda ancaq
"**Ət-Tahiyyatü**" oxunduqdan sonra sağımıza,
solumuza salam verib sonra "**Allahu Əkbər**"
deyib, səcdəyə gedirik. Namazın hər rükətində etdiyimiz
səcdələr kimi arxa-arxaya iki səcdə
edib oturuRuq, "**Ət-Tahiyyatü**",
"**Allahümmə salli-barik**" və "**Rabbəna**" dualarını oxuyaraq
sağa və sola salam veririk.

# NAMAZI POZAN SƏBƏBLƏR

1. Namazda danışmaq
2. Namazda bir şey yemək və ya içmək
3. Namazda özü eşidəcəyi tonda gülmək
4. Qiblədən üzünü çevirmək
5. Namazdaykən başqa bir iş etmək
6. Namazda olarkən birinə salam vermək, salam almaq
7. Namazda olarkən "Ah... off… oh" demək
8. Öskürməyi yox ikən öskürməyə çalışmaq .
9. Bir şeyi üfürmək
10. Birinə cavab niyyətilə ayə oxumaq
11. Təyəmmümlü ikən namazda suyu görmək
12. Sübh namazı qılarkən günəşin doğması
13. Məsh müddətinin namazda ikən bitməsi

www.islam.com.az

14. Ayənin mənasını pozacaq şəkildə səhv oxumaq
15. Kişi ilə qadının yan-yana durub namaz qılması
16. Namazda ayə və sürəni üzündən oxumaq
17. Namazda ayıb yerin açıq qalması
18. İmama uyan kimsənin namazın rüknlərini və ya rüknlərdən birini imamdan əvvəl etməsi

## NAMAZIN VACİBLƏRİ

1. Namaza Allahu Əkbər təkbiri ilə başlamaq
2. Namazda Fatihəni tam oxumaq
3. Vitr namazı ilə nafilə namazlarının hər rükətində, fərz namazların ilk iki rükətində bir surə oxumaq
4. Fatihəni surədən əvvəl oxumaq
5. Səcdədə burnu alın ilə bərabər yerə qoymaq
6. İki səcdəni bir-birinin ardınca etmək
7. Üç və ya dörd rükətli namazlarda ikinci rükətdən sonra oturmaq
8. İkinci rükətdən sonra və ya salam verəcəyi zaman "Ət-Tahiyyatü"nü oxuyur-oxumaz üçüncü rükətə qalxmaq
9. Üç və dörd rükətli fərz namazlar ilə Vitr namazında və Zöhr namazının ilk sünnətində ikinci rükətdən sonra "Ət-Tahiyyatüyü" bitirdikdən sonra üçüncü rükətə qalxmaq
10. Camaatla qılındığı zaman sübh, axşam, yatsı namazlarının birinci və ikinci rükətlərində, Cümə və Bayram namazında imamın Fatihə və surəni açıqdan oxumaq.
11. Təravih namazında və Təravihdən sonra qılınan Vitr namazında yenə imamın Fatihə və surəni açıqdan oxuması.
12. Zöhr və əsr namazlarında imamın Fatihə və surələri içindən oxuması.
13. İmama uyan kimsənin heçbir şey oxumayaraq susması.
14. Vitr namazında "Qunut duaları" nı oxumaq
15. Bayram namazında əlavə bayram təkbirlərini almaq
16. Namazın sonunda salam vermək
17. Namazda səhv edilərsə, **səhv səcdəsi** etmək
18. Namazda səcdə ayəsi keçərsə, səcdə etmək. Bu səcdəyə **tilavət səcdəsi** deyilir.

www.islam.com.az

# NAMAZIN SONUNDAKİ ZİKR VƏ DUALAR

Namazı tək ve ya camaatla bir yerdə qıldığımız vaxt
salam verəndən sonra bu duanı oxuyuruq:

*Allahümmə əntə's-sələmu ve minkəssəlam.*
*Təbarəktə ya zə'l-cələli və'l-ikram.*

{Allahım! Sən salamsan (yəni barış, rəhmət və əmniyət qaynağısan).
Salam (barış, rəhmət və əmniyət) ancaq səndəndir. Ey cəlal və kərəm sahibi! Sən bütün nöqsan sifətlərdən uzaqsan!}

Bundan sonra Peyğəmbərimizə səlat və salam oxuyuruq.

Daha sonra bu duanı oxuyuruq:

*Sübhanelləhi və'l-hamdulillahi və lə iləhə illallahu va'llahu əkbər.*
*Vəla havlə vəla guvvətə illa billahi'l-aliyyi'l-azim.*

(Allahı bütün nöqsan sifətlərdən uzaq tuturam.
Bütün gözəl öygülər Ona aiddir. Allahdan başqa ilah yoxdur, ən böyük Allahdır.
Uca və böyük olan Allahdan başqasında güc və quvvət yoxdur.)

Sonra *ayətü'l-kürsi* oxunur.

Sonra: *Zül-cəlali sübhanəllah* deyərək, 33 dəfə ***Sübhanəllah***
(Allahı bütün nöqsan sifətlərdən uzaq tuturam),

Sonra: *Zül-kəmali əlhamdulillah* deyərək, 33 dəfə ***el-Hamdulillah***
(Kəmal sahibi olan Allaha həmd edirəm Bütün gözəl öygülər Allaha aiddir),

Sonra: *Zü'-Qudrəti Allahu əkbər* deyərək, 33 dəfə ***Allahu əkbər*** deyilir.
(qüdrət sahibi olan Allah ən böyükdür).

Sonra bu duanı oxuyuruq:

*La iləhə illallahu vahdəh la şərikə ləh.*
*Ləhul-mulku və ləhu'l-hamdu vəhuvə alə kulli şey'in qadir*

(Allahdan başqa ilah yoxdur, O, təkdir,
Onun ortağı yoxdur. Mülk və bütün gözəl öygülər onundur. O, hər şeyə qadirdir.)

Bundan sonra əllərimizi sinəsinə qaldırıb,
səmaya doğru açar ve bildiyimiz duaları oxuyarıq.

Peyğəmbərimizin namazların sonunda tez-tez oxuduğu
və bizim də oxumağımızı tövsiyə etdiyi dualardan biri də belədir:

**"Allahım, günahlarımı ört və bizi qoru!
Bizdən razı ol! İbadət və qulluqlarımızı qəbul et! Cənnət və camalınla şərəfləndir. Cəhənnəmdən qurtar! Dünya və axirətə aid bütün işlərimizi düzəlt! Səni xatırlamaq, Sənə şükr etmək və yaxşı ibadət etmək üçün bizə yardım et, Allahım!"**

# NAMAZ DUALARI

## SÜBHANƏKƏ DUASI

سُبْحَانَكَ اللّٰهُمَّ وَبِحَمْدِكَ ۝ وَتَبَارَكَ اسْمُكَ ۝ وَتَعَالٰى
جَدُّكَ ۝ وَجَلَّ ثَنَاؤُكَ ۝ وَلَا اِلٰهَ غَيْرُكَ ۝

***Sübhanəkəl-lahummə və bihəmdik. Və təbərakəsmük. Və təala cəddük.(Vəcəllə sənaük) Və lə iləhə ğayrük.***

**Mənası**: Allahım! Sən bütün nöqsan sifətlərdən uzaqsan, səni daima belə təqdis edər və şəninə təriflər deyərəm. Sənin adın mübarəkdir. Əzəmət və cəlalın yüksəkdir (Sənin şəninə təriflər demək ucadır). Və səndən başqa heç bir ilah yoxdur.

## ƏTTAHİYYATU DUASI

اَلتَّحِيَّاتُ لِلّٰهِ وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ ۝ اَلسَّلَامُ عَلَيْكَ اَيُّهَا النَّبِيُّ
وَرَحْمَةُ اللّٰهِ وَبَرَكَاتُهُ ۝ اَلسَّلَامُ عَلَيْنَا وَعَلٰى عِبَادِ اللّٰهِ الصَّالِحِينَ
۝ اَشْهَدُ اَنْ لَا اِلٰهَ اِلَّا اللّٰهُ ۝ وَاَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ ۝

***Əttəhiyyatu lillahi vəs-salavətü vət-tayyibat. Əssəlamu aleykə eyyuhən-nəbiyyü və rahmətullahi və bərakətuh, əssəlamu aleyna və alə ibadil-lahis-salihin. Əşhədu ənlə iləhə illəllah və Əşhədu ənnə Muhammədən abduhu və rasuluh.***

**Mənası**: Dil, bədən və mal ilə olan ibadətlərin hamısı yalnız Allahadır. Ey mərtəbəsi uca olan Peyğəmbər! Allahın salamı, rəhməti və bərəkətləri sənə olsun! Salam və rəhmət bizim üzərimizə və Allahın yaxşı qullarına olsun. Şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur. Yenə şahidlik edirəm ki, Məhəmməd Allahın qulu və elçisidir.

## ALLAHÜMMƏ SALLİ DUASI

اَللّٰهُمَّ صَلِّ عَلٰى سَيِّدِنَا مُحَمَّدٍ وَعَلٰى اٰلِ سَيِّدِنَا مُحَمَّدٍ ۝ كَمَا
صَلَّيْتَ عَلٰى اِبْرَاهِيمَ وَعَلٰى اٰلِ اِبْرَاهِيمَ ۝ اِنَّكَ حَمِيدٌ مَجِيدٌ

***Allahümmə salli alə seyyidina Muhamməmədin və alə ali seyyidina Muhamməd. Kəma salləytə alə İbrahimə və alə ali İbrahim. İnnəkə hamidüm məcid.***

**Mənası:** Allahım! İbrahim Aleyhissəlama və yaxınlarına rəhmət etdiyin kimi Muhamməd Aleyhissəlama, Onun övlad və yaxınlarına da rəhmət et. Həqiqətən ən çox öyülən və şanı uca olan yalnız sənsən.

## ALLAHÜMMƏ BARİK DUASI

اَللّٰهُمَّ بَارِكْ عَلٰى سَيِّدِنَا مُحَمَّدٍ وَعَلٰى اٰلِ سَيِّدِنَا مُحَمَّدٍ ۝ كَمَا
بَارَكْتَ عَلٰى اِبْرَاهِيمَ وَعَلٰى اٰلِ اِبْرَاهِيمَ ۝ اِنَّكَ حَمِيدٌ مَجِيدٌ ۝

***Allahümmə barik alə seyyidina Muhammədin və alə ali seyyidina Muhamməd. Kəma bəraktə alə İbrahimə və alə ali İbrahim. İnnəkə hamidum məcid.***

**Mənası**: Allahım! İbrahim Aleyhissəlamı və yaxınlarını mübarək qıldığın kimi Muhamməd Aleyhissəlamı və yaxınlarını da mübarək qıl. Şübhə yox ki, şanı uca və öyülməyə layiq olan yalnız sənsən.

## RABBƏNA DUASI

رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ
النَّارِ ۞ بِرَحْمَتِكَ يَا أَرْحَمَ الرَّاحِمِينَ ۞
رَبَّنَا اغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ ۞

***Rabbəna atina fid-dünya hasənətən və fil axirəti hasənətən və qina azabənnar. Birahmətikə ya ərhəmər-rahimin. Rabbənağfirli və livalideyyə və lil-mu'mininə yəumə yəqumül-hisab.***

**Mənası**: Ey Rəbbimiz, bizə dünyada yaxşılıq və gözəllik; axirətdə də yaxşılıq və gözəllik ver. Ey mərhəmətlilərin ən mərhəmətlisi Allahım! Rəhmətinlə bizi cəhənnəm əzabından qoru. Ey Rəbbimiz, məni, anamı,atamı və bütün möminləri, hamının hesaba çəkildiyi gün bağışla, əfv eylə…

islam.com.az

## QUNUT DUASI (1)

اللَّهُمَّ إِنَّا نَسْتَعِينُكَ وَنَسْتَغْفِرُكَ وَنَسْتَهْدِيكَ ۞ وَنُؤْمِنُ
بِكَ وَنَتُوبُ إِلَيْكَ ۞ وَنَتَوَكَّلُ عَلَيْكَ ۞ وَنُثْنِي عَلَيْكَ الْخَيْرَ
كُلَّهُ نَشْكُرُكَ وَلَا نَكْفُرُكَ ۞ وَنَخْلَعُ وَنَتْرُكُ مَنْ يَفْجُرُكَ ۞

***Allahümmə inna nəstainükə və nəstağfirükə və nəstəhdikə və nüminü bikə və nətubü ileykə və nətəvəkkəlü aleykə və nüsni aleykəl-xayra, külləhu nəşkürükə vələ nəkfürük. Və nəxləu və nətrükü mən yəfcürük***.

**Mənası**: Allahım! Biz səndən kömək istəyirik, günahlarımızı bağışlamanı, bizi doğru yola yönəltməni diləyirik. Allahım! Sənə iman edərik,

tövbə edib sənə dönərik, işlərimizdə sənə arxalanıb sənə güvənirik. Səni öyərik, bütün xeyirlərin səndən olduğunu söyləyirik. Verdiyin bu qədər nemətlərə görə sənə şükr edərik və nankorluq etmərik. Sənə qarşı nankorluq edənlərdən ayrılıb, onlarla əlaqəmizi kəsərik.

## QUNUT DUASI (2)

اللّهمّ إيّاك نعبد ولك نصلّي ونسجد وإليك نسعى ونحفد
نرجو رحمتك ونخشى عذابك إنّ عذابك بالكفّار ملحق

***Allahümmə iyyakə-na'büdü və ləkə nusalli və nəscüdü və ileykə nəs'a və nahfidü nərcu rahmətəkə və naxşa azabəkə. İnnə azabəkə bil-küffari mülhiq.***

**Mənası**: Allahım! Yalnız sənə ibadət və qulluq edərik. Yalnız sənin üçün namaz qılarıq, ancaq sənə səcdə edər, yalnız sənə qaçarıq. Sənə sevgi ilə ibadət edər, sənin rəhmətini diləyib, əzabından qorxarıq. Çünki, sənin əzabın kafirləri tutar.

## CƏNAZƏ NAMAZI DUASI

اللّهمّ اغفر لحيّنا وميّتنا وشاهدنا وغائبنا وكبيرنا وصغيرنا
وذكرنا وأنثانا اللّهمّ من أحييته منّا فأحيه على الإسلام
ومن توفّيته منّا فتوفّه على الإيمان وخصّ هذا الميّت
بالرّوح والرّاحة والرّحمة والمغفرة والرّضوان

***Allahümməğfir li-hayyina və meyyitina və şahidina və ğaibina və kəbirina və sağirina və zəkərina və ünsana. Allahümmə mən ahyeytəhu minna fəahyihi aləl-islamə və mən təvəffeytəhu minna fətəvəffəhu aləl-iman və xussa həzəlmeyyitə birravhı vərrahati vərrahməti vəlmağfirati vərridvan.***

**Mənası**: Allahım, dirimizi, ölümüzü, burada olanı, olmayanı, böyüyümüzü, cavanımızı, kişimizi, qadınımızı bağışla. Allahım, içimizdən yaşatdıqlarını islama üzərə yaşat. Öldürdüklərini də iman üzərə öldür. Bu ölünü, cənnət qoxusu və rahatılığı ilə, rəhmət, məğfirət və özündən razı olmaqla mumtaz qıl.



www.islam.com.az

# TİLAVƏT SƏCDƏSİ NƏDİR?

Qurani-Kərimdə bəzi səcdə ayələri vardır ki, bunlardan birini oxuyan və ya dinləyən kimsəyə səcdə etmək vacib olur. Qurani-Kərimdə səcdə ayələri 14 yerdədir:

| | | | |
|---|---|---|---|
| 1. Əraf surəsi | 206 | 8. Nəml surəsi | 5 |
| 2. Rəd surəsi | 15 | 9. Səcdə surəsi | 15 |
| 3. Nəhl surəs | 49 | 10. Sad surəsi | 24 |
| 4. İsra surəsi | 107 | 11. Fussilət surəsi | 37 |
| 5. Məryəm surəsi | 58 | 12. Nəcm surəsi | 62 |
| 6. Həcc surəsi | 18 | 13. İnşiqaq surəsi | 21 |
| 7. Fürqan surəsi | 60 | 14. Ələq surəsi | 19 |

**Edilişi necədir?**

Tilavət səcdəsi niyyətiylə Allahu Əkbər deyilərək səcdə edilir. Səcdədə üç dəfə "**Sübhanə rabbiyəl-ə'la**" və ya bir dəfə "**Sübhanə Rabbəna in Kanə va'du rabbina və məfula**" deyilir. Sonra Allahu Əkbər deyilərək baş səcdədən qaldırılır.

Tilavət səcdəsinin bir şərti vardır. O da Allah Təalaya hörmət etmək üçün alnı yerə qoymaqdır.

Tilavət səcdəsi etmək, səcdədən qalxarkən ayağa qədər qalxmaq və ayağa qalxarkən

"**Gufranəkə rəbbəna və ileykəlmasır**" deyilməsi müstəhəbdir. Səcdə edərkən və səcdədən qalxarkən alınan təkbirlər də müstəhəbdir. Vacib olan sadəcə alnı yerə qoyub səcdə etməkdir.

# NAMAZ SURƏLƏRİ

## FATİHA SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ ۝ الرَّحْمَٰنِ الرَّحِيمِ ۝
مَالِكِ يَوْمِ الدِّينِ ۝ إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ ۝
اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ ۝ صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ
عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ ۝

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Əlhəmdu lilləhi Rabbil-aləmin. Ər-rahmənir-rahim. Maliki yəvmid-din. İyyakə nə'budu və iyyakə nəstə'in. İhdinəs-siratəl-mustəqim. Siratəl-ləzinə ən-əmtə aleyhim ğeyril-məğzubi aleyhim və ləz-zallin.***

**Mənası**: Mərhmətli, rəhmli Allahın adı ilə!Həmd(şükr və tərif) olsun Allaha (və ya: Həmd məxsusdur Allaha)-aləmlərin Rəbbinə, (Bu dünyada hamıya) mərhəmətli,(axirətdə isə ancaq möminlərə) rəhmli olana, Haqq-hesab (qiyamət) gününün sahibinə! Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! Bizi doğru (düz) yola yönəlt.Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!

## FİL SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

أَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِأَصْحَابِ الْفِيلِ ﴿١﴾ أَلَمْ يَجْعَلْ كَيْدَهُمْ
فِي تَضْلِيلٍ ﴿٢﴾ وَأَرْسَلَ عَلَيْهِمْ طَيْرًا أَبَابِيلَ ﴿٣﴾ تَرْمِيهِمْ
بِحِجَارَةٍ مِنْ سِجِّيلٍ ﴿٤﴾ فَجَعَلَهُمْ كَعَصْفٍ مَأْكُولٍ ﴿٥﴾

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Ələm-təra keyfə fəalə rabbukə bi əshabil-fil. Ələm yəc'al kəydəhum fi tadlil. Və ərsələ aleyhim tayran əbabil. Tərmihim bihicəratin min siccil. Fəcəaləhum kə əsfin məkul***

**Mənası**: (Ya Peyğəmbər) Məgər Rəbbinin fil sahiblərinə (Kəbəni dağıtmaq üçün fillərlə Məkkənin üstünə gələn həbəş ordusuna) nələr etdiyini görmədinmi?! Məgər (Rəbbin) onların hiyləsini boşa çıxartmadımı?! Onların üstünə qatar-qatar quşlar (əbabil quşları) göndərdi. (o quşlar) onlara bişmiş gildən düzəldilmiş (möhkəm xırda) daşlar atırdı. (Rəbbin) onları (Həşərat tərəfindən) yeyilmiş əkin yarpağına (saman çöpünə) döndərdi!

## QUREYŞ SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

لِإِيلَافِ قُرَيْشٍ ﴿١﴾ إِيلَافِهِمْ رِحْلَةَ الشِّتَاءِ وَالصَّيْفِ ﴿٢﴾ فَلْيَعْبُدُوا
رَبَّ هَٰذَا الْبَيْتِ ﴿٣﴾ الَّذِي أَطْعَمَهُمْ مِنْ جُوعٍ وَآمَنَهُمْ مِنْ خَوْفٍ ﴿٤﴾

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Li-iləfi qurəyşin. İləfihim rihlətəş-şitai vəssayf. Fəl-yə'budu rabbə hazəl-beytəlləzi ət-aməhum-min cuin və amənəhum min xauf.***

**Mənası**: (Ya Peyğəmbər! Qureyşlilərə de ki) Qureyşin ülfəti (dostluğu və ya Allahın onlar üçün səfəri asanlaşdırması) xatirinə. Onlara qış

və yay səfərinin müyəssər edilməsi (qışda Yəməndə, yayda Şamda istirahət və ticarət edə bilmələri) xatirinə. Bu evin Rəbbinə (Kəbənin sahibi Allaha) ibadət etsinlər! O Allah ki, onları aclıqdan qurtarıb yemək verdi və onlara qorxudan (fil sahiblərinin təhlükəsindən) sonra əmin-amanlıq bəxş etdi.

## MAUN SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

أَرَأَيْتَ الَّذِي يُكَذِّبُ بِالدِّينِ ۝١ فَذَٰلِكَ الَّذِي يَدُعُّ الْيَتِيمَ ۝٢ وَلَا
يَحُضُّ عَلَىٰ طَعَامِ الْمِسْكِينِ ۝٣ فَوَيْلٌ لِلْمُصَلِّينَ ۝٤ الَّذِينَ هُمْ عَنْ
صَلَاتِهِمْ سَاهُونَ ۝٥ الَّذِينَ هُمْ يُرَاءُونَ ۝٦ وَيَمْنَعُونَ الْمَاعُونَ ۝٧

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Əraeytəlləzi yukəzzibu biddin. Fəzalikəlləzi yədu'ul-yətim. Və lə yəhuddu alə təamil-miskin. Fə veylun-lil-musəllin. Əlləzinə hum an salətihim səhun. Əlləzinə hum yuraun. Və yəmnə-unəl-maun.***

**Mənası**: (Ya Peyğəmbər!) Dini (haqq-hesab günü)yalan hesab edəni (əbu Cəhli) gördünmü? O, elə adamdır ki, yetimi itələyib qovar(haqqını verməz); Və (xalqı) yoxsulu yedirtməyə rəğbətləndirməz (nə özü fəqiri yedirdər, nə də özgəsini qoyar) Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər (səhlənkarlıqları üzündən namazlarını vaxtında qılmazlar); Onlar namazlarında riyakarlıq edər, (Və xalqa) zəkat verməyi qadağan edərlər (yaxud xəsislik göstərib bir iş üçün qonum-qonşuya lazım olan qab-qacağı verməkdən imtina edərlər).

## KÖVSƏR SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ ۝ فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ ۝ إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ ۝

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***İnna ə'təynakəl-kəusər. Fəsalli li-rabbikə vənhər. İnnə şaniəkə huvəl-əbtər.***

**Mənası**: (Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər (Cənnətdəki Kövsər çayını və ya bol nemət, yaxud Quran, peyğəmbərlik) bəxş etdik! Ona görə də (bu nemətlərə şükr edərək) Rəbbin üçün namaz qıl və qurban kəs! (Ya Peyğəmbər! Oğlun Qasim, yaxud İbrahim vəfat etdiyi zaman sənə sonsuz, arxası kəsik, nəsli kəsilmiş deyən) sənin düşmənin (As ibn Vailin) özü sonsuzdur! (sənin nəslin qiyamətə qədər törəyib artacaq, adın çəkildikdə sənə həmişə salavat deyiləcəkdir!)

## KAFİRUN SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ ۝ لَا أَعْبُدُ مَا تَعْبُدُونَ ۝ وَلَا أَنْتُمْ عَابِدُونَ مَا أَعْبُدُ ۝
وَلَا أَنَا عَابِدٌ مَا عَبَدْتُمْ ۝ وَلَا أَنْتُمْ عَابِدُونَ مَا أَعْبُدُ ۝ لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ ۝

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Qul ya eyyuhəl-kafirun. La ə'budu ma tə'budun. Və la əntum abidunə ma ə'bud. Və lə ənə abidun-ma əbədtum. Və lə əntum abidunə ma ə'bud. Ləkum dinukum və liyə din.***

**Mənası**: (Ya Peyğəmbər! Sən bir il bizim bütlərimizə ibadət et, bir il də biz sənin Rəbbinə ibadət edək-deyən müşriklərə)de: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə (bütlərə) ibadət etmərəm. Siz də mənim ibadət etdiyimə (Allaha) ibadət etməzsiniz!Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! Sizin öz dininiz var, mənim də öz dinim (Elə isə sizin dininiz sizə, mənim dinim də mənə)

www.islam.com.az

## NƏSR SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

إِذَا جَاءَ نَصْرُ اللَّهِ وَالْفَتْحُ ۝ وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ
اللَّهِ أَفْوَاجًا ۝ فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّابًا ۝

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***İzə cə-ə nasrullahi vəl-fəth. Və raeytən-nasə yədxulunə fi dinilləhi əfvaca. Fəsəbbih bihəmdi rabbikə vəstəğfirhu. İnnəhu kənə təvvaba.***

**Mənası**: (Ya Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman; İnsanların dəstə-dəstə Allahın dininə (islama) daxil olduqlarını gördüyün zaman. Rəbbini həmd-səna ilə təqdis et (Onu bütün nöqsan sifətlərdən uzaq tutub pak bil, "Sübhanəkə Allahümmə vəbihəmdikə" kəlməsini de) və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!

## ƏBU-LƏHƏB SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

تَبَّتْ يَدَا أَبِي لَهَبٍ وَتَبَّ ۝ مَا أَغْنَىٰ عَنْهُ مَالُهُ وَمَا كَسَبَ ۝ سَيَصْلَىٰ نَارًا
ذَاتَ لَهَبٍ ۝ وَامْرَأَتُهُ حَمَّالَةَ الْحَطَبِ ۝ فِي جِيدِهَا حَبْلٌ مِنْ مَسَدٍ ۝

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Təbbət yədə Əbi Ləhəbiv-və təbbə. Ma ağna anhü məlühu vəma kəsəb. Səyəsla nəran zətə ləhəb. Vəmraətühu hamalətəl hatab. Fi cidiha hablüm mim-məsəd.***

www.islam.com.az

**Mənası**: Əbu Ləhəbin əlləri qurusun, qurudu da! (Və ya: Əbu Ləhəbin əlləri qurusun, o ölsün!) (Qiyamət günü) ona nə mal-dövləti fayda verəcək, nə də qazandığı (və ya oğul-uşağı) .O, alovlu atəşə girəcəkdir. Onun odun daşıyan (Peyğəbərlə düşməniçilik edən, adamlar arasında söz gəzdirən) arvadı da həmçinin! Onun (arvadının) boğazında xurma lifindən hörülmüş ip (və ya: yetmiş arşın uzunluğunda zəncir) olacaqdır!

## İXLAS SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

قُلْ هُوَ اللَّهُ أَحَدٌ ۝١ اللَّهُ الصَّمَدُ ۝٢ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ۝٣ وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ ۝٤

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Qul-huvəllahu əhəd. Allahus Saməd. Ləm yəlid və ləm yuləd. Və ləm yəkun-ləhu kufuvən əhəd.***

**Mənası**: (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: (Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O əzəlidir, əbədidir!) O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!) Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"

## FƏLƏQ SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ ۝١ مِن شَرِّ مَا خَلَقَ ۝٢ وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ ۝٣

وَمِن شَرِّ النَّفَّاثَاتِ فِي الْعُقَدِ ۝٤ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ۝٥

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Qul əuzu bi-rabbilfələq. Min şərri ma xələq. Və min şərri ğasiqin iza vəqəb. Və min şərrin nəffasəti fil-uqad. Və min şərri hasidin izə həsəd.***

**Mənası**: (Ya Peyğəmbər!) De: "Pənah aparıram sübhün Rəbbinə! Yaratdıqlarının (insanların, cinlərin, vəhşi heyvanların) şərindən; Zülmətə bürünməkdə olan gecənin (və ya batan ayın, ziyası sönən ulduzların) şərindən; (Ovsun oxuyub) düyünlərə üfürən (yaxud: cadu edib iplərə düyün vuran)qadınların şərindən; və bir də paxıllığı tutanda paxılın şərindən!"

## NAS SURƏSİ

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ ۝ مَلِكِ النَّاسِ ۝ إِلٰهِ النَّاسِ ۝ مِنْ
شَرِّ الْوَسْوَاسِ الْخَنَّاسِ ۝ الَّذِي يُوَسْوِسُ فِي صُدُورِ النَّاسِ
مِنَ الْجِنَّةِ وَالنَّاسِ ۝

www.islam.com.az

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Qul əuzu birrabbin-nas. Məlikin-nas. İlahin-nas. Min şərril-vəsvasil-xənnəs. Əlləzi yuvəsvisu fi sudurin-nas. Minəl cinnəti vən-nas.***

**Mənası**: (Ya Peyğəmbər!) De: "Pənah aparıram insanların Rəbbinə!; İnsanların ixtiyar sahibinə; İnsanların tanrısına; Vəsvəsə verən, (Allahın adı çəkiləndə isə qorxusundan) qaçıb gizlənən Şeytanın şərrindən. O Şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. (O Şeytan ki) cinlərdən də olur,insanlardan da! (Və ya (O şeytan) istər cinlərdən olsun, istər insanlardan!

# AYƏTÜL-KÜRSİ

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اللّهُ لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ لَهُ مَا فِي السَّمَاوَاتِ
وَمَا فِي الأَرْضِ مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ
وَمَا خَلْفَهُمْ وَلاَ يُحِيطُونَ بِشَيْءٍ مِنْ عِلْمِهِ إِلاَّ بِمَا شَاءَ وَسِعَ كُرْسِيُّهُ
السَّمَاوَاتِ وَالأَرْضَ وَلاَ يَؤُدُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Allahü lə iləhə illə Hüvəl-Həyyül-qayyum, lə tə'xuzuhu sinətun və lə nəvmun, ləhu ma fis-səmavati və ma fil-ərzi, mən zəlləzi yəşfəu indəhu illə bi iznihi, ya'ləmu mə bəynə əydihim və mə xəlfəhum, vəla yuhitunə bi şeyin min ilmihi illə bimə şə'ə vəsiə kursiyyu hus-səmavati vəl-ərzə, və lə yəuduhu hifzuhuma və huvəl aliyyul azim.***

**Mənası**: Allahdan başqa tanrı yoxdur. O, diridir, əbədidir, Allahın gözü yaratdıqlarının üstündədir. Onu nə mürgü tutar, nədə yuxu. Göylərdə və yerlərdə nə varsa, onundur. Onun izni olmadan yanına iltimas üçün kim gələ blər? Onların (Allahın) elmindən yalnız özü istədiyi qədər qavraya bilərlər. Onun "Kürsü" sü göyləri və yerləri əhatə etmişdir. Bunları hifz etmək (qorumaq) Allah-Təala üçün çətin (ağır bir iş ) deyil.Və o (Allah) uca və əzəmətlidir.

# AMƏNƏR-RƏSULU

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ

آمَنَ الرَّسُولُ بِمَا أُنْزِلَ إِلَيْهِ مِنْ رَبِّهِ وَالْمُؤْمِنُونَ كُلٌّ آمَنَ بِاللَّهِ
وَمَلَائِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ لَا نُفَرِّقُ بَيْنَ أَحَدٍ
مِنْ رُسُلِهِ وَقَالُوا سَمِعْنَا وَأَطَعْنَا غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ
﴿٢٨٥﴾ لَا يُكَلِّفُ اللَّهُ نَفْسًا إِلَّا وُسْعَهَا لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا
مَا اكْتَسَبَتْ رَبَّنَا لَا تُؤَاخِذْنَا إِنْ نَسِينَا أَوْ أَخْطَأْنَا
رَبَّنَا وَلَا تَحْمِلْ عَلَيْنَا إِصْرًا كَمَا حَمَلْتَهُ عَلَى الَّذِينَ مِنْ قَبْلِنَا رَبَّنَا
وَلَا تُحَمِّلْنَا مَا لَا طَاقَةَ لَنَا بِهِ وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا
أَنْتَ مَوْلَانَا فَانْصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ ﴿٢٨٦﴾

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Amənər-Rasulu bima unzilə ileyhi min Rabbihi vəlmuminin. Kullun amənə billahi və məlaikətihi və kutubihi və rusulihi. La nufərriqu beynə əhədin min rusulihi və qalu səmi'na və ətə'na ğufranəkə Rabbəna və ileykəl-məsir. Lə yukəllifullahu nəfsən illa vüs'əha, ləhə mə kəsəbət, və aleyha məktəsəbət. Rabbənə la tuəxizna innəsina av- əxta'na, Rabbənə və la təhmil aleyna isran kəma həməltəhu ələl-ləzinə min qəblina. Rabbənə və la tuhəmmilna mə lə taqətə ləna bih. Və'fu ənna vəğfirləna vərhəmna. əntə mauvlənə fənsurna ələl-qaumil-kafirin.***

**Mənası**: Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana)inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun Mələklərinə, Kitablarına və (bütün) peyğəmbərlərinə iman gətirərək dedilər: "Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq, (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi ba-

ğışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq! Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir. (Möminlər deyirlər;) Ey Rəbbimiz,(bəzi tapşırıqlarını) unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi də ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyə bizi mükəlləf etmə! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!”

## HÜVƏLLAHÜLLƏZİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

هُوَ اللّٰهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ هُوَ
الرَّحْمَٰنُ الرَّحِيمُ ﴿٢٢﴾ هُوَ اللّٰهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ
الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ الْمُتَكَبِّرُ سُبْحَانَ اللّٰهِ عَمَّا يُشْرِكُونَ
﴿٢٣﴾ هُوَ اللّٰهُ الْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ لَهُ الْأَسْمَاءُ الْحُسْنَىٰ
يُسَبِّحُ لَهُ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ ﴿٢٤﴾

BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

***Hüvəllahülləzi lə iləhə illə hu, alimülğaybi vəşşəhadəh, hüvərrahmanürrahim. Hüvəllahülləzi lə iləhə illa hu, əlməlikülquddüsüssəlamül-mü’minül müheyminül-azizül cəbbərulmütəkəbbir, sübhanallahi amma yüşrikun. Hüvallahulxaliqul-bariul-musavviru, ləhül-əsmail-hüsna, yüsəbbihu ləhü mə fissəmavati vəl-ard. Və hüvəl azizül-hakim.***

**Mənası**: O Özündən başqa heç bir tanrı olmayan, gizlini də, aşkarı da bilən Allahdır. O Rəhmlidir, Mərhəmətlidir! (Allah dünyada bütün

bəndələrinə rəhm edən Rəhman, axirətdə isə yalnız möminləri bağışlayan Rəhimdir!) O, Özündən başqa heç bir tanrı (məbud) olmayan, mülkün (bütün məxluqatın sahibi, müqəddəs (pak) olan, (bəndələrinə) salamatlıq, əmin-amanlıq bəxş edən, (hər şeydən) göz-qulaq olub (onu) qoruyan, yenilməz qüvvət sahibi, (hamını istədiyi hər hansı bir şeyə) məcbur etməyə qadir olan, (hər şeydən) böyük (hər şeyin fövqündə) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır. O,(hər şeyi) yaradan, yoxdan var edən, (hər şeyə) surət verən Allahdır. Ən gözəl adlar (Əsmai-Hüsna) ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa (hamısı) Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir!



NAS SURƏSİ



ŞƏHİDLİK MƏSCİDİ - BAKI - 1996

# İ Ç İ N D Ə K İ L Ə R


Ön söz ........................................................................................ 5
Namazın bizə faydaları ........................................................................ 7
Dini hökümlər ................................................................................. 10

**Namaz** ..................................................................................... 11
Namazın fərzləri? ..............................................................................11
Namazın şərtləri ...............................................................................12
Namazın rükünləri ..............................................................................13

İslamda təmizliyə verilən önəm .................................................................14
Təmizliyin hikməti nədir? ......................................................................14
Təharət nədir? .................................................................................15
Nəcasət (kiçik təmizlik) nədir? ................................................................15
Hədəs (böyük təmizlik) nədir?...................................................................15

Dəstəmazın nədir? ..............................................................................16
Dəstəmaz almağın savabı ........................................................................16
*Oxuma parçası* - Dəstəmaz almağı uşaqlardan öyrənən qoca ................17

**Dəstəmaz** .................................................................................. 19
Dəstəmaz .......................................................................................19
Dəstəmazın fərzləri ............................................................................19
Dəstəmazın alınması ............................................................................20
Dəstəmazı pozan şeylər .........................................................................24

*Oxuma parçası* - Qüsl (boy dəstəmazı) ..........................................25
*Oxuma parçası* - Bir Amerikalı gözüylə Qüsl ....................................27

**Qüsl** ...................................................................................... 29
Qüsl nədir? .....................................................................................29
Qüslün fərzləri ................................................................................29
Qüsl belə alınır ...............................................................................30
Qüslsüz edilməyən ibadətlər .....................................................................30
Qüslu olmayanın bunları etməsi məkruhdur ........................................30
Qüsllə əlaqəli digər mövzular ..................................................................31


www.islam.com.az

Qüsl nə deməkdir? ....................................................................31

**Təyəmmüm** ............................................................................ 33
Təyəmmüm nədir? ....................................................................33
Təyəmmümün fərzləri ..............................................................33
Təyəmmüm belə alınır ..............................................................34
Təyəmmümü pozan şeylər bunlardır ...........................................35

**Namaz qılınması** ........................................................................37
Sübh Namazı ............................................................................37
Sübh Namazının fərzinin qılınması ............................................45
Zöhr (Günorta) Namazı ..............................................................46
Əsr Namazı ..............................................................................49
Şam (Axşam) Namazı ................................................................51
Xiftən (Gecə)Namazı ................................................................53
Vitr Namazı ..............................................................................54
Camaatla Namaz qılmaq ............................................................56
Cümə Namazı ...........................................................................57
Bayram Namazı .........................................................................59
Təravih Namazı .........................................................................61
Cənazə Namazı .........................................................................62
Qəza Namazı .............................................................................63
Səfər Namazı .............................................................................63
Səhv Səcdəsi .............................................................................64
Namazı pozan səbəblər ..............................................................64
Namazın vacibləri .....................................................................65

**Namaz Duaları** .......................................................................... 67
Sübhanəkə Duası ......................................................................67
Əttahiyyatu Duası......................................................................67
Allahummə Salli .......................................................................68
Allahummə Barik ......................................................................68
Rabbəna Duası ..........................................................................69
Qunut Duası (I) .........................................................................69
Qunut Duası (II) ........................................................................70
Cənazə Namazı Duası ................................................................70

www.islam.com.az

Namazin sonunda oxunacaq zikr və dualar ................................66
Tilavət Səcdəsi nədir? ........................................................... 72

**Namaz Surələri** ........................................................... 73
Fatiha Surəsi ........................................................... 73
Fil Surəsi ........................................................... 73
Qureyş Surəsi ........................................................... 74
Maun Surəsi ........................................................... 75
Kövsər Surəsi ........................................................... 75
Kafirun Surəsi ........................................................... 76
Nəsr Surəsi ........................................................... 77
Əbu-Ləhəb Surəsi ........................................................... 77
İxlas Surəsi ........................................................... 78
Fələq Surəsi ........................................................... 78
Nas Surəsi ........................................................... 79
Ayətül-Kürsi ........................................................... 80
Amənər-Rasulu ........................................................... 80
Hüvəllahülləzi ........................................................... 82

**İçindəkilər** ........................................................... 85

www.islam.com.az

# QÜSL, DƏSTƏMAZ, NAMAZ

Bakı, «Qismət», 2006

*(Azərbaycan dilində)*

www.islam.com.az

**«Qismət»** mətbəəsində
ofset üsulu ilə çap edilmişdir.

H. Zərdabi Prospekti, 78
Tel: (+994 12) 497 57 61, 497 70 22, Faks: (+994 12) 497 70 23